AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

7 SENTYABR 2018-ci il CÜMƏ № 198 (6231) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri

## Zaqrebdə rəsmi qarşılanma mərasimi





**Xorvatiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 6-da rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

**(davamı 2-ci səhifədə)**

## Azərbaycan və Xorvatiya prezidentlərinin təkbətək görüşü



**Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə təkbətək görüşü olub.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Azərbaycan ilə Xorvatiya arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı.

Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Azərbaycan və Xorvatiya prezidentlərinin geniş tərkibdə görüşü olub



Xüsusi müxbirimiz xəbər verir ki, sentyabrın 6-da təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

**AZƏRTAC**

## Braziliya Federativ Respublikasının Prezidenti Zati-aliləri cənab Mişel Temerə

Hörmətli cənab Prezident,

Braziliya Federativ Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Braziliya arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Braziliya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 sentyabr 2018-ci il.**

# Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri

## Zaqrebdə rəsmi qarşılanma mərasimi









**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanın və Xorvatiyanın dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiya əsgərlərini salamladı.

Xorvatiyanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Kolinda Qrabar-Kitaroviçə təqdim olundu.

Prezidentlər birgə foto çəkdirdilər.

AZƏRTAC

## Azərbaycan-Xorvatiya sənədləri imzalanıb

**Sentyabrın 6-da geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin iştirakı ilə Azərbaycan-Xorvatiya sənədlərinin imzalanması mərasimi olub.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Xorvatiya Respublikasının Mədəniyyət Nazirliyi arasında 2018-ci, 2019-cu və 2020-ci illər üzrə mədəni əməkdaşlığa dair Proqram"ı Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Xorvatiya Respublikasının mədəniyyət naziri xanım Nina Obulyen Korjinek imzaladılar.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Xorvatiya Respublikasındakı səfiri Fəxrəddin Qurbanov və Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyində dövlət katibi xanım Mariya Vuçkoviç imzaladılar.

AZƏRTAC





## Azərbaycan və Xorvatiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Sentyabrın 6-da sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç mətbuata bəyanatlarla çıxış ediblər.**

**AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, əvvəlcə Xorvatiya Prezidenti Kolinda Qrabar-Kitaroviç bəyanatla çıxış etdi.**



### Prezident Kolinda Qrabar-Kitaroviçin bəyanatı

- Xanımlar və cənablar.

Sizin hamınızı, xüsusən də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi və onun nümayəndə heyətini Xorvatiya Respublikasında səmimi qəlbdən salamlayıram. Cənab Prezident, ümidvaram ki, Siz özünüzü burada öz evinizdəki kimi rahat hiss edirsiniz. Bu gün Sizin səfəriniz başlayıb və apardığımız danışıqlar bu axşam da davam edəcəkdir. Əminəm ki, Sizin səfəriniz həm xoş, həm də məhsuldar olacaqdır. Beləliklə, Sizə və nümayəndə heyətinizə səmimi qəlbdən "Xoş gəlmisiniz!" deyirəm. Həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Sizi təbrik etmək istərdim.

Xorvatiyaya Sizin 2013-cü ildəki rəsmi səfərinizdən sonra və mənim 2016-cı ilin oktyabrında Azərbaycana rəsmi səfərimdən etibarən, - mən bu səfəri çox yaxşı xatırlayıram, - biz dost ölkələrimiz arasında bir çox birgə işlər görmüşük. Xorvatiya Azərbaycanı strateji tərəfdaşlıq haqqında Bəyannamə əsasında özünün mühüm strateji tərəfdaşı hesab edir. Bu Bəyannamə iki ölkə arasında 2013-cü ildə Zaqrebdə Sizin rəsmi səfəriniz çərçivəsində imzalanmışdır.

Biz bu gün əməkdaşlığımızın bir sıra sahələrində mövcud olan böyük potensial haqqında danışdıq. Biz, həmçinin siyasi məsələlər üzrə fikir mübadiləsi apardıq, o cümlədən enerji, iqtisadiyyat, mədəniyyət, elm-texnologiya, təhsil və əlbəttə ki, xalqlarımız arasında birbaşa təmasların inkişafı haqqında danışdıq. Mən bu gün imzalanmış sənədləri vacib hesab edirəm, alqışlayıram və bu, bizim ikitərəfli münasibətlərimizə təkan verəcək.

Azərbaycan və Xorvatiya əsl dostlardır. Biz bir-birimizi Avropa İttifaqı çərçivəsində də dəstəkləyirik. Biz, Azərbaycanın Avropa İttifaqı ilə ikitərəfli qaydada münasibətlərinin inkişaf etdirilməsi ilə bağlı mövqeyini yüksək dəyərləndiririk. İnanıram ki, biz müdafiə sahəsində də əməkdaşlığımızı inkişaf etdirəcəyik. Çünki biz, 2013-cü ildə müdafiə sahəsində də əməkdaşlıqla bağlı anlaşma memorandumu imzaladıq. Bu baxımdan zabitlərimiz və hərbçilərimiz, əsgərlərimiz bir sıra müxtəlif hərbi kurslarda, hərbi məktəblərdə öz təhsilini artıra bilərlər.

Biz, həmçinin iqtisadi əməkdaşlığa da toxunduq. İnanıram ki, biz bunu inkişaf etdirə bilərik. Çünki bu sahədə hazırkı vəziyyət hələ o qədər də istənilən səviyyədə deyil. Bildiyiniz kimi, iqtisadi əməkdaşlıqla bağlı Azərbaycan ilə Xorvatiya arasında qarşılıqlı komissiya öz işini aparır. İşin əsas məqsədi ikitərəfli layihələr irəli sürməkdən, onları həyata keçirməkdən ibarətdir. Biz, həmçinin Bakıda bu komissiyanın son iclasını keçirmişik və istərdik ki, növbəti sessiya yaxın zamanlarda öz işinə başlasın. Təbii ki, bu çərçivədə əczaçılıq və enerji sahəsinə xüsusi diqqət yetirməliyik. İnanıram ki, Xorvatiya digər sahələrdə də öz təcrübəsi ilə bölüşə bilər. Bu gün biz, bu əməkdaşlığın, həmçinin əczaçılıq sahəsində də genişləndirilməsi haqqında danışdıq. Prezident bununla bağlı qeyd etdi ki, şirkətlərimiz tərəfindən Xorvatiya ilə Azərbaycan arasında birgə müəssisə təsis edilə bilər. Bunun sayəsində bizim əczaçılıq şirkətləri üçün fürsət yaranacaq ki, onlar Mərkəzi Asiya və ümumiyyətlə, Xəzər hövzəsi regionuna çıxış əldə etsinlər, o cümlədən Azərbaycanda da fəaliyyət göstərsinlər. Təbii ki, bu da bizim aramızda ticari münasibətləri də inkişaf etdirəcəkdir.

**(davamı 3-cü səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri

## Azərbaycan və Xorvatiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

(əvvəli 2-ci səhifədə)

Eyni zamanda, gəmiqayırma sahəsində də vacib işlər var. Bizim 6 gəmi ilə bağlı müzakirələrimiz oldu. Ümidvaram ki, bununla bağlı danışıqlarımız davam etdiriləcəkdir və Azərbaycan ilə biznes potensialını tam şəkildə istifadə edə biləcəyik.

Həmçinin biz kənd təsərrüfatı, informasiya texnologiyaları, yeyinti məhsullarının emalı sahələrində də əməkdaşlığı inkişaf etdirməyə ümid edirik.

Xorvatiya gələcəkdə bu regionun daha inkişaf etmiş qovşağına çevriləcəkdir. Bunun üçün biz istərdik ki, Azərbaycanın reallaşdırdığı və bir çox ölkələrin ərazisindən keçən qaz boru kəməri layihəsində də iştirak edək. Bildiyiniz kimi, Adriatik dənizinin sahilində bu layihə çərçivəsində boru kəməri çəkilir. Biz, həmçinin Xorvatiyanın Krk adasında maye qaz terminalının tikintisində maraqlıyıq. Bu, Azərbaycanın enerji bazarlarına çıxışını daha da genişləndirəcək.

O ki qaldı, Avropa İttifaqındakı fəaliyyətimizə, Xorvatiya güclü iradəyə əsaslanaraq Cənub və Mərkəzi Avropa ölkələri ilə Xəzər hövzəsi arasında daha geniş əməkdaşlığın inkişaf etdirilməsinə tərəfdardır. Azərbaycan əslində, bu təşəbbüsü dəstəkləyibdir. Bu təşəbbüsə digər tərəfdaşlar da, maraqlı dövlətlər də qoşula bilər. Bu təşəbbüsdə dünyanın müxtəlif şirkətləri iştirak edə bilər. Buxarestdə 2018-ci ilin sentyabrında bununla bağlı keçiriləcək Zirvə görüşündə hesab edirik ki, mühüm addımlar atılacaq və bu, çox yüksək səviyyədə, siyasi səviyyədə ortaya qoyulan bir iradə olacaqdır. Bu da bizim spesifik dialoqumuzun əsasını təşkil edir.

Mən, eyni zamanda, bildirmək istəyirəm ki, Azərbaycan NATO-nun mühüm tərəfdaşıdır. Sizin NATO-ya verdiyiniz töhfəniz vacibdir. Bildiyiniz kimi, Azərbaycan da bizim ölkə kimi müxtəlif yerlərdə təhlükəsizlik məsələlərinin həllinə, sabitliyin qorunmasına töhfə verir və bunda maraqlıdır. Burada söhbət, xüsusən Avropanın cənub bölgəsindən gedir. Siz, həmçinin Əfqanıstanda aparılan əməliyyatlara da qatılmısınız. Təhlükəsizliyə və sabitliyə verdiyiniz davamlı dəstəyə və töhfəyə görə mən Sizə təşəkkürümü bildirirəm.

Sonda bildirmək istəyirəm ki, bu yaxınlarda biz qərar qəbul etdik. Azərbaycanda bizim müvəqqəti ofisimiz bağlanır. Lakin mən qərar qəbul etdim ki, Bakıda Xorvatiyanın daimi səfirliyi fəaliyyətə başlasın. Mən bununla bağlı Azərbaycana səfir də təyin edəcəyəm.

Cənab Prezident, Sizi Xorvatiyada bir daha səmimi qəlbdən salamlayırıq və ümidvaram ki, səfəriniz xoş keçəcəkdir.



### Prezident İlham Əliyevin bəyanatı

- Çox sağ olun, hörmətli xanım Prezident.

Əziz dostlar.

İlk növbədə, xanım Prezident, məni Xorvatiyaya dəvət etdiyinizə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Mən, Siz qeyd etdiyiniz kimi, Xorvatiyada özümü evimdəki kimi hiss edirəm. Sizin gözəl ölkənizə yenidən səfər etmək mənim üçün çox xoşdur.

Bizim siyasi dialoqumuz çox fəal aparılır. Xanım Prezident qeyd etdiyi kimi, biz tez-tez görüşürük. İki il bundan əvvəl xanım Prezident Azərbaycanda rəsmi səfərdə idi. Səfər çox uğurlu keçmişdir və çox gözəl nəticələri olmuşdur. Keçən il biz bir beynəlxalq konfrans çərçivəsində görüşmüşdük. Bu gün də mən Xorvatiyadayam. Bu, göstərir ki, siyasi dialoq çox fəaldır. Bu, onu göstərir ki, Xorvatiya və Azərbaycan doğrudan da strateji tərəfdaşlardır. Xanım Prezidentin qeyd etdiyi kimi, beş il bundan əvvəl Zaqrebdə bu barədə Bəyannamə imzalanmışdır.

Strateji tərəfdaşlıq əlaqələrimiz genişlənir, güclənir. Bu gün bir çox məsələlər müzakirə olundu. Xanım Prezident bu barədə məlumat verdi. Öz tərəfimdən qeyd edim ki, biz Xorvatiya ilə daha böyük həcmdə ticarət əməliyyatları aparmaq istəyirik. Ticarət dövriyyəsinin nə həcmi, nə də strukturu bizi qane edə bilməz. Hesab edirəm ki, hökumətlərarası komissiya bu məsələ ilə bağlı çox ciddi fəaliyyət göstərəcək. Yaxın zamanlarda həm ticarət dövriyyəsinin artırılması, eyni zamanda, müştərək investisiya layihələri də icra edilə bilər.

Əlbəttə ki, bizim energetika sahəsində əməkdaşlığımız çox önəmlidir. Azərbaycan Cənub Qaz Dəhlizinin icrası ilə çox fəal məşğuldur, bu nəhəng layihənin təşəbbüskarı olmuşdur. Bu layihə 7 ölkəni birləşdirir, Bakıdan Avropaya qədər 3500 kilometr uzunluğunda qaz kəmərinin çəkilişini və Azərbaycanın nəhəng "Şahdəniz" yatağının işlənilməsini nəzərdə tutur. Dörd seqmentdən ibarət olan bu layihə uğurla icra edilir. Bu ilin mayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. İyun ayında isə biz TANAP layihəsinin açılışını qeyd etdik. Beləliklə, əminəm ki, yaxın iki il ərzində Azərbaycan qazı ilk dəfə olaraq Avropa məkanına çatdırılacaq. Beləliklə, Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə veriləcək və Azərbaycan öz qaz potensialını daha da böyük həcmdə dünyaya, Avropaya təqdim edə bilər.

Əlbəttə ki, Xorvatiya ilə bu sahədəki əməkdaşlıq çox önəmlidir. Bakıda dörd il ardıcıllıqla Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantıları keçirilir. Xorvatiya bu toplantılarda yüksək səviyyədə təmsil olunur. Bizim aramızda bu məsələ ilə bağlı memorandum da imzalanmışdır. İon-Adriatik qaz kəmərinin tikintisi ilə bağlı çox əhəmiyyətli danışıqlar aparılmaqdadır.

Azərbaycanın qaz ehtiyatları çox böyükdür. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bu, onu göstərir ki, biz, qaz hasilatının artırılması ilə bağlı əlavə addımlar atacağıq və ixrac coğrafiyasını da genişləndirmək fikrindəyik.

Avropa İttifaqı-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Bu ilin iyul ayında Brüsseldə Avropa İttifaqı ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" sənədi imzalanmışdır. Bu, yeni Sazişin imzalanması üçün çox önəmli bir addımdır. Hazırda Avropa İttifaqı və Azərbaycan yeni Saziş üzərində işləyir. İşlər yaxşı gedir və Xorvatiya həmişə bizim Avropa İttifaqı ilə əməkdaşlığımızı dəstəkləmiş və öz dəyərli töhfəsini vermişdir. Avropa İttifaqı ilə bizim əlaqələrimiz bir çox sahələri əhatə edir, siyasi islahatlar, iqtisadi əməkdaşlıq, enerji əməkdaşlığı və nəqliyyat sahəsindəki əməkdaşlıq. Azərbaycan bu sahədə də öz töhfəsini verir.

Keçən ilin oktyabr ayında Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı olmuşdur. Bu yol nəinki Azərbaycanı Türkiyə ilə birləşdirir, Asiyanı Avropa ilə birləşdirən yeni yoldur, yeni nəqliyyat damarıdır, ən qısa yoldur. Bu yol artıq fəaliyyətdədir. Göndərilən yüklərin həcmi hər gün artır və Azərbaycan Avrasiyanın nəqliyyat xəritəsinə də öz dəyərli töhfəsini vermişdir. Ümid edirəm ki, xorvatiyalı tərəfdaşlarımız bu yoldan da istifadə edə biləcəklər. Çünki bu, nəqliyyat və iqtisadi sahələrdə çox gözəl layihədir.

Azərbaycanın NATO ilə əməkdaşlığı yüksək səviyyədədir. Mənim NATO-ya çoxsaylı rəsmi səfərlərim olmuşdur. Yaxın keçmişdə Azərbaycan Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasındakı öz hərbi kontingentinin sayının artırılması ilə bağlı qərar qəbul etmişdir. Artıq 120 azərbaycanlı hərbçi Əfqanıstanda xidmət göstərir. Eyni zamanda, "Qətiyyətli dəstək" missiyasının təmin olunması üçün Azərbaycan öz hava məkanını və nəqliyyat infrastrukturunu təqdim edib. Bu da missiyanın uğurla davam etməsi üçün çox önəmli məsələdir.

Bir sözlə, həm Avratlantik strukturlarla bizim əlaqələrimiz, həm də ikitərəfli müstəvidə aparılan işlər onu göstərir ki, Xorvatiya və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlardır. Bu gün xanım Prezident qeyd etdiyi kimi, bir çox sahələrdə gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Əczaçılıq, kənd təsərrüfatı, kənd təsərrüfatı məhsullarının emalı, gəmiqayırma sahələrində bütün istiqamətlər üzrə, əminəm ki, yaxşı nəticələr olacaq. Müvafiq göstərişlər verildi. Əminəm ki, hökumətlərarası müştərək komissiya bütün bu göstərişləri vaxtında və yüksək səviyyədə icra edəcək.

Hörmətli xanım Prezident, dəvətə və göstərilən qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Dost Xorvatiya xalqına daim tərəqqi və xoşbəxtlik arzulayıram. Sağ olun.

**AZƏRTAC**

## Prezident İlham Əliyev Zaqrebdə "Xorvatiya Qurbanlarının Səsi-Ağrı Divarı" abidəsini ziyarət edib





**Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zaqrebdə "Xorvatiya Qurbanlarının Səsi-Ağrı Divarı" abidəsini ziyarət edib.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı abidənin önünə əklil qoydu, Xorvatiya uğrunda canlarından keçmiş insanların xatirəsini ehtiramla yad etdi.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiyanın Baş naziri Andrey Plenkoviç ilə işçi nahar edib





**Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə işçi nahar edib.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Xorvatiyanın Baş naziri Andrey Plenkoviç Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan Prezidenti dövlət iqamətgahının fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Prezident İlham Əliyev və Baş nazir Andrey Plenkoviç birgə foto çəkdirdilər.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. İqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Həmçinin kənd təsərrüfatı, əczaçılıq, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu.

(davamı 4-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri

## Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiyanın Baş naziri Andrey Plenkoviç ilə işçi nahar edib





(əvvəli 3-cü səhifədə)

Söhbət zamanı ölkəmizin Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq etdiyi bildirildi. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, Cənub Qaz Dəhlizinin əhəmiyyəti qeyd olundu, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Sonra Azərbaycan Prezidenti və Xorvatiyanın Baş naziri birgə işçi nahar etdilər.

AZƏRTAC

## Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviç ilə görüşüb





**Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya Respublikası parlamentinin sədri Qordan Yandrokoviç ilə görüşüb.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, parlament sədri Qordan Yandrokoviç Prezident İlham Əliyevi qarşıladı.

Azərbaycan Prezidenti İlham Əliyev və Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviç birgə foto çəkdirdilər.

Görüşdə Azərbaycan Prezidentinin Xorvatiyaya rəsmi səfərinin uğurlu keçdiyi, səfər çərçivəsində səmərəli müzakirələrin aparıldığı qeyd edildi. Azərbaycan ilə Xorvatiya arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. Ticarət dövriyyəsinin artırılmasının vacibliyi qeyd olundu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, Cənub Qaz Dəhlizinin əhəmiyyəti xüsusi vurğulandı. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsində xüsusi rolunun olduğu bildirildi.

Azərbaycanın Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasında iştirakının önəmi qeyd olundu, ölkəmizin Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq etdiyi bildirildi. Azərbaycan ilə Xorvatiya arasında nəqliyyat, əczaçılıq, turizm sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğu vurğulandı.

Söhbət zamanı parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd edildi, dostluq qruplarının bu işə mühüm töhfə verəcəyi bildirildi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRTAC

## Ali qonağın şərəfinə



Xüsusi müxbirimiz xəbər verir ki, sentyabrın 6-da Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri sentyabrın 6-da başa çatıb.

AZƏRTAC

# Türkdilli dövlətlərin birliyi möhkəmlənir

### *Prezident İlham Əliyev bildirib ki, ölkələrimiz sıx əlaqələr saxlayır və bu əlaqələr siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir*

**Dünyadakı qloballaşma, müasir çağırışlar şəraitində türkdilli dövlətlərin birliyinin əhəmiyyəti böyükdür. Müxtəlif formatlarda keçirilən sammitlər çərçivəsində səslənən fikirlər göstərir ki, siyasi və diplomatik həmrəyliyi ən yüksək səviyyədə saxlamaq bu ölkələrin hər birinin marağındadır. Qırğızıstanın Çolpon-Ata şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitindəki çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bildirib ki, türkdilli dövlətlər sıx əlaqələrə malikdir. Bu əlaqələr siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir. Ölkələrimiz beynəlxalq təşkilatlarda da bir-birinə dəstək verir və bu dəstək çox önəmlidir.**

Türkdilli ölkələrin əməkdaşlığı həm region, həm də dünya üçün böyük önəm daşıyır. Qırğızıstanın Çolpon-Ata şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşündə ölkələrimiz arasındakı əlaqələr yüksək dəyərləndirilib və eyni zamanda gələcək əməkdaşlıq üçün əlavə layihələrin, tədbirlərin həyata keçirilməsi haqqında fikir mübadiləsi aparılıb. Sözsüz ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası kimi türk dünyasının digər qurumları olan TürkPA, TÜRKSOY və Türk Akademiyası da son illər ərzində ölkələrimiz arasında əlaqələrin genişlənməsinə böyük töhfələr verib.

Bu gün bu dövlətlər arasında birliyin təmin edilməsinə böyük əzmkarlıq və ən başlıcası, müəyyən edilən qərarları yerinə yetirməyə sadiqlik vardır. Ölkələrimiz arasındakı iqtisadi, investisiya, energetika, nəqliyyat sahələrində potensial əməkdaşlığın konkret layihələrinə diqqət yetirsək, görərik ki, iqtisadi əməkdaşlığa böyük önəm verilir. Azərbaycan türkdilli dövlətlərə investisiyalar yatırır və bizim ölkəyə də sərmayələr qoyulur. Eyni zamanda, Azərbaycan türkdilli dövlətlər üçün tranzit ölkədir. Həm enerji daşıyıcıları, həm də digər yüklər Azərbaycan ərazisindən keçir. Nəqliyyat Təhlükəsizliyi Əməkdaşlıq Şurasına üzv olan ölkələr üçün də Azərbaycan böyük əhəmiyyətə malik ölkədir. Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı kimi müasir infrastruktura malik obyekt bu işə böyük töhfədir. Limanın ümumi yükdaşıma qabiliyyəti 25 milyon tona bərabərdir. Bakı-Tbilisi-Qars dəmir yolu həm iqtisadi, həm də siyasi maraqları təmin etmək nöqteyi-nəzərindən çox əhəmiyyətlidir. Çünki türkdilli ölkələr Avropanı, Qafqaz və Orta Asiyadan keçməklə, Çin vasitəsilə Şərqi Asiyaya bağlayacaq bu strateji xətt üzərində yerləşir.

Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasının əhəmiyyətini vurğulayan Qazaxıstan Prezidenti Nursultan Nazarbayev bildirib ki, cənab İlham Əliyevin bəyan etdiyi kimi, Qafqazdan keçməklə Türküstandan Qara dənizə dəmir yolu istifadəyə verilib: "Bununla yanaşı, Qazaxıstanın Kurık və Aktau limanlarının yükötürmə qabiliyyəti 26 milyon tona çatıb. Həmçinin Qazaxıstandan, Türkmənistandan və İrandan Körfəz ölkələri bazarlarına daxil olmağa imkan verən dəhlizi qeyd etmək lazımdır. Çindən Qazaxıstan vasitəsilə Xəzər dənizinə, Qafqaz regionuna və Avropaya konteynerlərin daşınması bizim üçün ticari-iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi baxımından yeni imkanlardır".

**(davamı 5-ci səhifədə)**

*Prezident İlham ƏLİYEV:*

# Əgər dünyada beynəlxalq hüquq və ədalət pozulmasa, müharibə də olmayacaq

**İqtisadi müstəqillik bizə imkan verir ki, beynəlxalq məsələlərin həllində, ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatında öz mövqeyimizi müdafiə edək. Bizim mövqeyimiz ədalətlidir, beynəlxalq hüquqa və ədalətə söykənir. Bu iki anlayış beynəlxalq münasibətlər üçün də xüsusi əhəmiyyət kəsb edir. Harada ki, beynəlxalq hüquq, ədalət pozulur, orada toqquşmalar da, müharibələr də, gərginlik də olacaq. Əgər dünyada beynəlxalq hüquq və ədalət pozulmasa, müharibə də olmayacaq.**

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 66-cı kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2014-cü il noyabrın 13-də Bakıda keçirilən Azərbaycan-İran biznes-forumundakı nitqində söyləyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 66-cı kitabındakı materiallar 2014-cü ilin noyabrından 2015-ci ilin yanvarınadək olan dövrü əhatə edir.

Kitab Prezident İlham Əliyevin və Azərbaycanda rəsmi səfərdə olan İran Prezidenti Həsən Ruhaninin mətbuata bəyanatları ilə başlayır. Bu cilddə dövlətimizin başçısının Bakıya işgüzar səfərə gəlmiş Əfqanıstan Prezidenti ilə görüşünə, habelə Koreya Respublikası Baş nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsinə, eləcə də Türkiyə Respublikasına dövlət səfərinə, Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında iştirakına, imzalanan sənədlərə, Almaniyaya işgüzar səfərinə, bu ölkələrin rəhbərləri ilə apardığı danışıqlara, mətbuata bəyanatlara dair materiallar toplanıb.

Nəşrdə Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, Böyük Britaniya, Türkiyə, Serbiya, Yaponiya və digər dövlətlərin, Avropa Komissiyasının, Beynəlxalq Telekommunikasiya İttifaqının, Beynəlxalq Olimpiya və Avropa Olimpiya komitələrinin, Beynəlxalq Atçılıq Federasiyasının, "BBC Global News"un, BP şirkətinin ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini, xarici ölkələrin Azərbaycanda təyin olunmuş səfirlərini qəbul etməsinə dair informasiyalar da yer




alıb.

Azərbaycan Prezidentinin paytaxtımızda keçirilən bir sıra beynəlxalq tədbirlərdə söylədiyi nitqlərin, "Euronews" və "Rossiya-24" telekanallarına müsahibələrinin mətnləri ilə 66-cı kitabda tanış olmaq mümkündür.

Nəşrdə, həmçinin dövlətimizin başçısının Uşaqların III Ümumrespublika Forumunun, "Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)" mövzusunda beynəlxalq konfransın, "Beynəlxalq Antikorrupsiya Akademiyasına üzv dövlətlərin assambleyası"nın III sessiyasının, "XXI əsrdə sənayeləşmə: sənaye siyasətində əsas trendlər, müasir yanaşma və təcrübələr" mövzusunda beynəlxalq konfransın, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin təhsil nazirlərinin III görüşünün, "Bakutel-2014" XX Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisi və konfransının, Azərbaycan Alimlərinin I Qurultayının iştirakçılarına məktubları, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Azərbaycanın Pravoslav xristian icmasına İsa Peyğəmbərin mübarək mövludu - müqəddəs Milad bayramı münasibətilə təbrikləri, digər müraciətləri və məktubları toplanıb.

Kitabda Prezident İlham Əliyevin Heydər məscidinin açılışı mərasimində nitqi, bu tədbirdə iştirak etmək üçün ölkəmizə gəlmiş Rusiya Federasiyası Şimali Qafqaz respublikalarının din xadimləri ilə görüşünə dair informasiyalar da yer alıb. Bu kitabın əhatə etdiyi dövrün materiallarında "Bakı-2015" birinci Avropa Oyunlarına yüksək səviyyədə hazırlıqla bağlı görülən işlər haqqında informasiyalar əldə etmək olar.

Çoxcildliyin bu kitabına Prezident İlham Əliyevin məcburi köçkünlər üçün Gəncədə salınan yeni qəsəbənin açılışı mərasimində iştirakına, Sumqayıt şəhərinə, Şəmkir, Sabirabad rayonlarına səfərlərinə, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Sabirabad regional "ASAN xidmət" mərkəzinin, "ASAN Könüllüləri"nin I Ümumrespublika Forumunun açılışı mərasimlərində iştirakına, bölgələrdə ictimaiyyət nümayəndələri ilə görüşlərinə, infrastruktur obyektlərinin, sənaye və mədəniyyət müəssisələrinin təməlqoyma və açılış mərasimlərində iştirakına dair materiallar, Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında giriş və yekun nitqlərinin mətnləri daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri də verilib.

"Azərnəşr" tərəfindən buraxılan 66-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

**AZƏRTAC**

# Problemli aktivlərin əvəzində əldə edilmiş nəqliyyat vasitələrindən səmərəli istifadə məsələsi Nazirlər Kabinetində müzakirə olunub

**Sentyabrın 6-da Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun rəhbərliyi ilə aidiyyəti qurumların (İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Bakı Nəqliyyat Agentliyi, "Aqrarkredit" QSC, "Azərbaycan Sənaye Korporasiyası" ASC) rəhbərlərinin iştirakı ilə "Aqrarkredit" QSC tərəfindən Azərbaycan Beynəlxalq Bankından alınmış problemli aktivlərin (borcların) əvəzində əldə edilmiş nəqliyyat vasitələrindən səmərəli istifadə məsələsi müzakirə olunub.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırılma tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 iyul tarixli 570 nömrəli Fərmanının icrasının təmin edilməsi istiqamətində müzakirələr aparılıb və aidiyyəti qurumların rəhbərlərinə konkret tapşırıqlar verilib.

**AZƏRTAC**

*Mamuka Baxtadze:*

# Azərbaycan ilə münasibətlərin daha da dərinləşməsi üçün birgə fəaliyyət planı hazırlanır

**Bizə yaxın qonşu və dost ölkə olan Azərbaycana səfərim çox məhsuldar və hər iki tərəf üçün çox mühüm bir səfər oldu.**

Gürcüstan Baş nazirinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu sözləri Baş nazir Mamuka Baxtadze hökumətin sentyabrın 6-da keçirilən yüksək səviyyəli iclasında səsləndirib. Onun sözlərinə görə, Bakıda Azərbaycan ilə Gürcüstan arasında birgə iqtisadi layihələr və bu sahədə mövcud olan bəzi problemlər müzakirə edilib.

Baş nazir deyib: "Bilirsiniz ki, bizim ölkələrimiz arasında azad ticarət əlaqələri var. Amma bəzi çatışmazlıqlar da mövcuddur. Azərbaycan ilə azad ticarət rejimini genişləndirmək və xidmət sahəsində münasibətləri dərinləşdirmək bizim üçün vacibdir. Hər iki tərəf ticarət dövriyyəsini yaxın iki il ərzində 50-60 faiz artırmağı qarşıya məqsəd qoyub. Bu fakt ticarət dövriyyəmizin daha da genişləndirilməsinə yeni stimul verməlidir".

M.Baxtadze, eyni zamanda, təhsil və mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb və Bakıda bu məsələnin də müzakirə mövzusu olduğunu bildirib.

Baş nazir yeni regional layihələrin, o cümlədən enerji sektoruna aid layihələrin bundan sonra da fəal şəkildə müzakirə olunacağını xüsusi qeyd edib. Bildirib ki, Bakıya səfəri çərçivəsində Avropa və Çin ilə olduğu kimi, Azərbaycanla da azad ticarət zonasının yaradılmasına dair müqavilənin daha effektiv olmasına təkan verəcək yeni birgə müəssisələrin yaradılması barədə razılıq əldə edilib.

"Münasibətlərimizin gələcəkdə daha da dərinləşməsinə dair birgə fəaliyyət planının hazırlanması barədə razılığa gəlmişik və bu istiqamətdə işlər davam edir", - deyə Mamuka Baxtadze vurğulayıb.

**AZƏRTAC**

# Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin perspektivləri müzakirə edilib

**Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə əvvəlki illə müqayisədə 100 dəfə çox yük daşınıb.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev "Rusiya Dəmir Yolları" ASC-nin baş direktorunun birinci müavini Aleksandr Mişarin ilə görüşündə deyib.



Görüşdə Şahin Mustafayev Azərbaycan-Rusiya əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, nəqliyyat sahələrində uğurla inkişaf etdiyini vurğulayıb. Qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin sentyabrın 1-də Rusiya Federasiyasına rəsmi səfəri, səfər çərçivəsində keçirilmiş görüşlər və imzalanmış 17 sənəd əməkdaşlığın genişləndirilməsində xüsusilə önəmlidir.

Nəqliyyat sahəsinin Azərbaycan-Rusiya əməkdaşlığının əhəmiyyətli istiqamətlərindən olduğunu qeyd edən nazir dövlət başçılarının görüşündə də bu məsələnin diqqət mərkəzində olduğunu bildirib. O, səfər zamanı özündə beş yol xəritəsini əhatə edən "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə 2024-cü ilədək Fəaliyyət Planı"nın imzalandığını və sənədin nəqliyyat sahəsində əməkdaşlığın inkişafı üzrə Yol Xəritəsi bölməsində Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üzrə tərəflərin qarşılıqlı əməkdaşlığının xüsusi qeyd edildiyini vurğulayıb.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin hər iki ölkə üçün əhəmiyyətini diqqətə çatdıran iqtisadiyyat naziri bu sahədə görülən işlər, o cümlədən nəqliyyat dəhlizi üzrə dəmir yolu xəttinin tikintisinə dair fikirlərini bölüşüb. Bildirib ki, Rusiya ilə birgə həyata keçirilən Samur çayı üzərində körpünün tikintisi hazırda davam edir. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əlaqələrin genişləndirilməsi və tranzit daşımalarının artırılması sahəsində önəmini vurğulayan nazir nəqliyyat dəhlizi vasitəsilə əvvəlki illə müqayisədə 100 dəfə çox yük daşındığını qeyd edərək, Şərq-Qərb nəqliyyat dəhlizi üzrə əməkdaşlıq imkanlarını diqqətə çatdırıb.

"Rusiya Dəmir Yolları" ASC-nin baş direktorunun müavini A.Mişarin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin önəmli layihələrdən olduğunu vurğulayıb, bu istiqamətdə dəmir yolu xəttinin tikintisinə dair işçi qrupunun yaradılması və digər məsələlərə dair fikirlərini bildirib.

**AZƏRTAC**

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Yardımlıda cənub bölgəsinin vətəndaşlarını qəbul edib

**Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova sentyabrın 6-da Yardımlı şəhərindəki Heydər Əliyev Mərkəzində cənub bölgəsindən olan vətəndaşları qəbul edib.



Qəbuldan əvvəl Komitə sədri Hicran Hüseynova və Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarından olan sakinlərin iştirak etdikləri qəbulda sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, erkən nikah və boşanmaların yaratdığı problemlər, imkansız ailələrin müvafiq istiqamətdə təminatı, övladlığa verilmə, uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığına məruzqalma və digər bu kimi məsələlərlə bağlı müraciətlərə baxılıb.

Vətəndaşların Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyətinə aid məsələlərə dair müraciətləri Komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılaraq cavablandırılıb və aidiyyəti üzrə tədbirlər görülüb.

Qəbula gələn sakinlər mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin mütəmadi olaraq bölgələrdə vətəndaşların qəbulunun təşkilindən razılıqlarını ifadə edərək, dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Vətəndaşların qəbulu başa çatdıqdan sonra Komitə sədri Hicran Hüseynova rayonun bir qrup fəal qadını ilə görüşüb. Görüşdə Yardımlı rayonunda qadın və uşaq hüquqlarının müdafiəsi, qadın sahibkarlığının inkişafı və digər məsələlər ətrafında müzakirələr aparılıb. Komitə sədri Hicran Hüseynova ailə, qadın və uşaq siyasəti sahəsində görülən mühüm işlər və layihələr haqqında görüş iştirakçılarına məlumat verib.

Tədbirdə cənub bölgəsinin rayonlarında qeydə alınan erkən nikah halları, sakinlərin məşğulluğu, qadın sahibkarlara dəstək, uşaqların təhsildən yayınması və digər mühüm mövzularla bağlı fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

*Rusiyalı ekspert:*

# "Şimal-Cənub" layihəsi hazırda ən vacib birgə layihədir

**"Şimal-Cənub" layihəsi hazırda ən vacib birgə layihədir. Bu layihədə Azərbaycan çox böyük rol oynayır.**

Tanınmış rusiyalı ekspert, Siyasi İnformasiya Mərkəzinin analitiki İvan Pyatibratov bu sözləri AZƏRTAC-a müsahibəsində Azərbaycan dövlətinin başçısı İlham Əliyevin sentyabrın 1-də Soçiyə səfərinin və Rusiya Prezidenti Vladimir Putin ilə danışıqlarının yekununu şərh edərkən söyləyib.

O deyib: "Bu cür görüşlər ölkələrimizin liderləri üçün artıq ənənəvi hal alıb. İlham Əliyevin Rusiyaya səfəri onun Rusiya tərəfinə və şəxsən Vladimir Putinə etimadının göstəricisidir. Belə olmasaydı onların görüşü hər hansı beynəlxalq forum çərçivəsində neytral ərazidə keçirilərdi. Görüşlərin müntəzəm keçirilməsi və yeni sazişlərin imzalanması ilə başa çatması onu göstərir ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji xarakter daşıyır və uzunmüddətli planlara əsaslanır".

Ekspert Soçi görüşünün nəticələrindən söhbət açaraq deyib: "Rusiya ilə Azərbaycan arasında iqtisadi münasibətlərin inkişafı yeni təkan alıb. Azərbaycanda "QAZ" avtomobillərinin yığma sahəsinin inşa edilməsi, "Qoşadaş" qaz yatağının və Xəzər dənizinin təkindəki bir hissənin "Rosneft" və SOCAR tərəfindən birgə öyrənilməsi layihələri ölkələrimizi ən mühüm sahələrdən biri olan neft-qaz və maşınqayırma sahəsində, deməli, siyasi baxımdan da yaxınlaşdırır. Qeyd etmək lazımdır ki, bu layihələrin həyata keçirilməsi üçün illərlə vaxt tələb olunur. Bu, dövlətlərimiz arasında münasibətlərin strateji xarakterini bir daha vurğulayır".

İ.Pyatibratov "Şimal-Cənub" layihəsinin əhəmiyyətini qeyd edərək dəqiqləşdirib: "Bu cür uzunmüddətli layihələr onların iştirakçılarını öz daxili və xarici siyasətlərini əlaqələndirməyə, maksimum səmərəli əməkdaşlığa və gələcəyi birgə qurmağa sövq edir. Bununla əlaqədar, deyə bilərəm ki, indiki mərhələdə ölkələrimizin aşkar yaxınlaşması çox cəhətdən məhz bu meqalayihə üzərində işlə bağlıdır. Həmin meqalayihə Rusiya üçün geosiyasi baxımdan - siyasi və iqtisadi təsir vektorlarının şaxələndirilməsi vasitəsi kimi, Azərbaycan üçün isə iqtisadi baxımdan - öz mallarının yeni bazarlara, ilk növbədə, Avropa bazarlarına çıxarılması yolu kimi, habelə respublikanın regionda ən mühüm qovşağa çevrilməsinə kömək edən amil kimi əhəmiyyətlidir. Beləliklə, Rusiya ilə Azərbaycan arasında münasibətlərin tədricən, lakin düzgün istiqamətdə möhkəmlənməsini, ölkələrimizin müştərək gündəliyinin formalaşmasını və qarşılıqlı maraqlar nəzərə alınmaqla əlaqələndirilməsini müşahidə edirik".

**AZƏRTAC**

# Türkdilli dövlətlərin birliyi möhkəmlənir

*Prezident İlham Əliyev bildirib ki, ölkələrimiz sıx əlaqələr saxlayır və bu əlaqələr siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir*

**(əvvəli 4-cü səhifədə)**

Bu fikirlərdə faktiki olaraq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının məqsədləri, gətirəcək faydaları və konkret əhatə dairəsi əks olunub. Göründüyü kimi, uzun müddətə nəzərdə tutulan bu münasibətlər strateji önəmə malikdir və əlaqələrin inkişaf perspektivlərini müəyyən edir. Xatırladaq ki, 2009-cu ildə Naxçıvan Sazişi ilə yaradılan Türk Şurası qardaş ölkələr arasında birliyi təmin etmək və daha da möhkəmlətmək üçün ötən illərdə keçirilən sammitlərdə verilən tövsiyə və təlimatlar istiqamətində səmərəli və çox faydalı işlər görüblər. Bununla da əsas məqsəd qardaş ölkələr arasında ikitərəfli formatda mövcud əməkdaşlığı əhatəli şəkildə çoxtərəfli münasibətlərə çevirmək olub. Türk Şurasının ötən müddətdə təşkilati cəhətdən gücləndiyini qeyd Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Xəzərdən keçməklə Qafqazı və Orta Asiyanı aşaraq Çinə qədər uzanan "Şərq-Qərb Orta Dəhliz" təşəbbüsünə böyük önəm veririk: "Bu layihənin ən önəmli mərhələsi Azərbaycan ilə birlikdə həyata keçirdiyimiz Bakı-Tbilisi-Qars dəmir yolu layihəsidir. Beləliklə, Qərbi Avropadan çıxan bir qatar dayanmadan Xəzər sahillərinə, oradan da Aktau limanı vasitəsilə Şanxaya və Seula çata biləcək. Bu mühüm nəqliyyat xətti xalqlarımızın rifah səviyyəsinin artmasına və münasibətlərimizin inkişafına töhfə verəcək". Qeyd edək ki, ölkələrimiz enerji sahəsində də əlaqələrin inkişaf etdirilməsinə böyük önəm verir. Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri layihələri bu əməkdaşlığın ən önəmli bəhrələridir. Cənub Qaz Dəhlizinin əsas hissəsini təşkil edən TANAP-ın istifadəyə verilməsi də birgə əməkdaşlığın potensial imkanlarını göstərir.

Türkdilli dövlətlər arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq daha da möhkəmlənib, ölkəmizin regional məsələlərdə, investisiya, nəqliyyat, təhsil və digər sahələrdə ortaq fəaliyyəti uğurla inkişaf edir və bu istiqamətdə bir sıra iqtisadi layihələr diqqəti cəlb edir - deyən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev bildirib ki, Azərbaycanda Ələt Beynəlxalq Dəniz Limanı, Qazaxıstanda "Dostluq" və digər nəqliyyat-logistika kompleksləri fəaliyyət göstərir: "Bir müddət öncə isə Aktauda Kurık limanı işə düşdü. Bu layihələr gələcəkdə regional əməkdaşlığı daha da gücləndirəcək. Türkiyənin Mersin limanına ən yaxın marşrut olan Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı, bu il fəaliyyətə başlayacaq Əndican-Oş-Kaşqar avtomobil yolu dəhlizi bu baxımdan xüsusi imkanlar açır".

VI Zirvə görüşündə müşahidəçi dövlət statusunda Macarıstanın baş naziri Viktor Orbanın iştirak etməsi təsdiq edir ki, macar xalqı türkdilli xalqlarla əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır.

Qeyd edək ki, hazırda Macarıstanın Türkiyə, Azərbaycan və Qazaxıstanla münasibətləri strateji tərəfdaşlıq səviyyəsindədir. Türk Şurasına üzv dövlətlər Macarıstanın xarici siyasətində çox vacib rol oynayırlar.

Zirvə görüşünün yüksək səviyyədə keçməsi, nümayəndə heyətləri rəhbərlərinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitinin Bəyanaməsini imzalaması, çıxışlarda səslənən fikirlər göstərir ki, əməkdaşlıq qurumunun fəaliyyəti bundan sonra da qardaş xalqların əlaqələrinin daha da dərinləşməsinə xidmət edəcək. Çünki dünyanın qlobal gerçəklərində ölkələrimizin birliyinə ehtiyac hər zaman olduğundan daha çoxdur.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

*Braziliyanın Milli Günü münasibətilə*

# Azərbaycan-Braziliya əməkdaşlığı genişlənir

**Bu gün Braziliya dedikdə, ilk öncə yaşlı nəslin gözləri qarşısında Edson Arentes du Nasimento adlı, "Pele" ləqəbi ilə tanınan əfsanəvi futbolçu canlanır. Lakin bu diyar eyni zamanda yaxşı inkişaf etmiş kənd təsərrüfatı, dağ-mədən sənayesi, istehsal və xidmət bölməsinə malik olan bir ölkədir. Onun iqtisadiyyatı bütün digər Latın Amerikası ölkələrinin iqtisadiyyatından üstündür və o, dünya bazarında öz iştirakını günü-gündən genişləndirməkdədir.**

Xatırladaq ki, 2003-cü ildən etibarən özünün makroiqtisadi sabitliyini müntəzəm olaraq yaxşılaşdıran bu dövlət xeyli miqdarda qızıl-valyuta ehtiyatları yaratmış və xarici borclarının miqdarını azaltmışdır. Hazırda bu ölkədə hər il təqribən 80 ton qızıl hasil edilir.

Son on ilə nəzər yetirsək görərik ki, hökumətin həyata keçirdiyi iqtisadi və maliyyə islahatları sayəsində Braziliya 2008-ci ildən başlayaraq əsl xarici kreditora çevrilmişdi. Hətta dünyanın iki reytinq agentliyi Braziliya iqtisadiyyatını investisiya statusuna layiq görmüşdür. Lakin bu dövrdə rekord artımdan sonra qlobal maliyyə böhranının başlanması həmin ilin sentyabrında ölkə iqtisadiyyatına təsirsiz ötüşmədi. Nəticədə ölkə iqtisadiyyatı yarım ilə yaxın tənəzzül dövrünü yaşamalı oldu. Çünki, dünyada Braziliya mallarına tələbat aşağı düşmüşdü və xarici kreditlərin verilməsi azalmışdı.

Ancaq Braziliya inkişaf etməkdə olan ölkələr arasında tez bir zamanda öz iqtisadiyyatını bərpa etməyə başlayan ilk dövlətlərdən biri oldu. Tezliklə sərmayədarların tələbatı və etimadı bərpa olundu. Nəticədə ümumi daxili məhsulun artım sürətində müsbət irəliləyiş baş verdi. Təbii ki, dünya bazarına çıxarılan ixracat mallarının bərpa edilməsi iqtisadi artıma əlverişli təsir göstərdi.

Hazırda sabit iqtisadi artım və yüksək faiz dərəcələri bu ölkənin iqtisadiyyatını xarici sərmayədarlar üçün cəlbedici etmişdir. Ölkəyə xarici kapitalın böyük axını yerli valyuta kursunun da sürətli artımına kömək etdi. Bu amil isə hökuməti vadar etdi ki, bəzi xarici investisiyalar üzərindəki vergiləri yüksəltsin.

Son illər Braziliya inkişaf etməkdə olan dünyanın başlıca ölkələrindən birinə çevrilmişdir. O, ümumi daxili məhsulun həcminə görə Latın Amerikası ölkələri arasında birinci yeri tutur. Sənaye istehsalının həcminə görə isə dünyanın ən böyük 10 ölkəsi sırasına daxildir. Braziliyanın sürətli inkişafına və zəngin xammal bazasına baxmayaraq, ümumi daxili məhsulda hələlik bu sahənin payı azdır. Ölkədə apatit və dəmir filizi, həmçinin qızıl, gümüş, qalay, almaz və asbest hasilatı güclü inkişaf etmişdir. Dəmir filizi sənayesi xeyli dərəcədə ixracat sifarişləri üçün işləyir. Ölkədə 40 növdən çox faydalı qazıntı çıxarılır. Hər il 200 milyon tondan çox dəmir filizi hasil olunur. Onun təqribən 40 faizi xarici ölkələrə ixrac olunur. Braziliya boksit hasilatı üzrə dünyada ilk yerlərdən birini tutur. Sink, mis və nikelin hasilatı daxili bazarın ehtiyaclarını ödəyir. Ölkədə həm də bir sıra strateji xammal ehtiyatları tədarük olunur.

Yerli neft yataqları bu yanacağa olan tələbatın yarıya qədərini təmin edir. Buna görə də hökumət onu idxal etməli olur. Belə ki, ölkənin illik neft istehlakı 75 milyon ton təşkil edir.

Ölkədə işçi qüvvəsinin 20 faizi kənd təsərrüfatı sahəsində fəaliyyət göstərir. Belə ki, kənd təsərrüfatı məhsullarının ixracı üzrə Braziliya dünyada üçüncü yeri tutur. Dünya üzrə bu məhsulun ixracatında onun payı 6,1 faiz təşkil edir. Bu ölkə həm də geniş plantasiyalarda becərilən bir sıra kənd təsərrüfatı məhsullarının - kofe, şəkər qamışı, soya, qarğıdalı, kakao, banan və s. ənənəvi istehsalçısı və ixracatçısıdır. İqtisadiyyatda həmçinin təbii kauçuk yığımı, qoz və dərman bitkiləri tədarükü də böyük əhəmiyyət kəsb edir.



Azərbaycan müstəqillik əldə edəndən sonra özünün xarici siyasətini milli maraqlar əsasında qurmağa başladı. Yaxın-uzaq ölkələrlə həyatın müxtəlif sahələrində sıx əlaqələr yaratdı. Yeni şəraitdə iqtisadi infrastrukturların yaradılması üçün müasir texnologiyalar, təcrübələr, zəruri avadanlıqlar və xammal ehtiyatları tələb olunurdu. Bununla əlaqədar olaraq inkişaf etməkdə olan ölkələrlə əməkdaşlığın genişləndirilməsi mühüm əhəmiyyət kəsb edirdi. Bu mənada Latın Amerikasında ən böyük dövlət olan, dünya iqtisadiyyatında özünəməxsus yer tutan Braziliya Federativ Respublikası ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi Azərbaycan dövlətinin xarici siyasət kursunun qarşısında duran önəmli vəzifələrdən biri idi.

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonar Braziliya onu ilk tanıyan ölkələr arasında oldu. 1991-ci il dekabrın 26-da Braziliya Azərbaycan Respublikasının müstəqilliyini rəsmən tanıdı. 1993-cü il oktyabrın 21-də iki ölkə arasında diplomatik əlaqələr quruldu. 2012-ci il mayın 9-da Braziliya Federativ Respublikasının Azərbaycan Respublikasında səfirliyi təsis edildi.

İki ölkə arasında diplomatik əlaqələrin qurulması qarşılıqlı siyasi münasibətlərin yüksələn xətlə inkişafına müsbət təsir göstərdi. Təsadüfi deyil ki, dəfələrlə beynəlxalq arena və forumlarda ölkələrimiz bir-birinin mövqeyini dəstəkləmişdir. Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasında Ermənistanın işğalçılıq siyasətini pisləyən bəyanat da qəbul edilmişdir. 2017-ci ildə Braziliyanın xarici əlaqələr naziri Aloysio Nunesin Azərbaycana rəsmi səfəri zamanı bir sıra önəmli görüşlər keçirildi. O çıxışında bildirmişdi ki, "Braziliya sülhsevər dövlətdir və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir".

Digər tərəfdən iki ölkə arasında siyasi əlaqələrin normal məcrada inkişaf etməsi həyatın müxtəlif sahələrində əlaqələrin inkişafına təkan verdi. Təsadüfi deyil ki, hazırda iki ölkə arasında həm də iqtisadi, ticarət, humanitar, mədəniyyət, təhsil və idman sahələrində əməkdaşlıq genişlənir. Bu işdə hər iki ölkənin qanunverici orqanlarının rolu durmadan artır. Bu mənada Azərbaycan-Braziliya əməkdaşlığının inkişafında həm də parlamentlərarası əlaqələr mühüm rol oynayır. 2012-ci ildə AR Milli Məclisində Azərbaycan-Braziliya Parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradıldı. Bunun ardınca 2013-cü ilin sentyabrında Braziliya Deputatlar Palatasında, 2014-cü ilin aprelində isə Braziliya Senatında Braziliya-Azərbaycan dostluq qrupları rəsmən yaradılmış oldu.

Son zamanlar Azərbaycanın xarici iqtisadi əlaqələrinin yüksək səviyyədə olduğunu nəzərə alan Braziliya tərəfi onun iqtisadi potensialına ciddi maraq göstərir. Öz növbəsində Latın Amerikası regionunda böyük sənaye potensialına malik olan Braziliya ilə Azərbaycan arasında əməkdaşlığın bir çox istiqamətlər üzrə potensial imkanlarının üzə çıxdığını hər iki tərəf etiraf edir. İki ölkə arasında bir çox sahələrdə, xüsusilə neft-qaz sahəsində əməkdaşlıq inkişaf edir.

İki ölkənin ticarət əlaqələri ildən-ilə genişlənir. 2017-ci ildə Braziliya Azərbaycana 172 milyon dollar məbləğində əmtəə ixrac edib. Azərbaycan isə öz növbəsində 112 min dollar məbləğində əmtəə ixrac edib. Nəticədə Braziliya Cənubi Amerika və Karib hövzəsi ölkələri üzrə Azərbaycanın ən iri ticarət tərəfdaşına çevrilmişdir.

Azərbaycan və Braziliya hökumətləri arasında ticarət və investisiya əməkdaşlığı üzrə 2016-cı il dekabrında Braziliya şəhərində imzalanmış anlaşma memorandumu bir daha təsdiq etdi ki, tərəflər iqtisadi əlaqələrin gücləndirilməsində maraqlıdırlar. İki ölkə arasında ticarət və investisiya əməkdaşlığı sahəsində imzalanmış anlaşma memorandumları, 2017-ci ildə yaradılmış Azərbaycan və Braziliya hökumətləri arasında ticarət və investisiyalar üzrə birgə işçi qrupu iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Braziliya ilə ticarət əlaqələrinin ildən-ilə genişlənməsi hər bir soydaşımıza artıq məlumdur. Bu gün möhkəm əminliklə demək olar ki, Braziliya malları Azərbaycan bazarında öz layiqli yerini tutmuşdur.

Hava əlaqələri sahəsində də canlanma müşahidə olunur. "Azərbaycan hava yolları" və "Buta hava yolları" şirkətləri tərəfindən 2013 və 2016-cı illərdə Braziliyadan "Embraer" təyyarələrinin satınalınması iqtisadi münasibətləri inkişaf etdirməyə təkan verdi.

İki ölkə arasında mədəniyyət, təhsil, idman sahələrində əlaqələr də inkişaf etməkdədir. Braziliya Xarici Əlaqələr Nazirliyinin nəzdində fəaliyyət göstərən Rio Branko İnstitutu ilə Azərbaycanda fəaliyyət göstərən nüfuzlu Azərbaycan Diplomatiya Akademiyası arasında anlaşma memorandumunun imzalanması bu sahədə əlaqələri daha da sıxlaşdırdı. 2016-cı ilin martında Rio de Janeyro şəhərində Azərbaycan Respublikasının adını daşıyan bələdiyyə məktəbi açıldı. Bunun ardınca Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya



Oyunlarına həsr edilmiş Azərbaycan poçt markaları buraxıldı.

2013-cü ilin avqustunda paytaxt Braziliya, ardınca Rio-de-Janeyro, sentyabrda isə San-Paulo şəhərlərində Braziliya Bankının mədəniyyət mərkəzi tərəfindən Azərbaycan bədii filmlərinin nümayişi təşkil olundu. Braziliya-Azərbaycan diplomatik münasibətlərinin qurulmasının 20 illiyi münasibətilə paytaxt Braziliyada xalq artisti maestro Yalçın Adıgözəlovun rəhbərliyi ilə konsert keçirildi.

Münasibətlərin yaxşılaşdırılmasında digər praktikadan da istifadə olunmuşdur. Hələ 2013-cü ilin dekabrında Rio-de-Janeyro şəhər şurasının (şəhər parlamenti) xarici əlaqələr komitəsi Bakı və Rio-de-Janeyro şəhərlərinin qardaşlaşması haqqında qanun layihəsini qəbul etmiş və şəhər meri Eduardo Paes "Azərbaycanın paytaxtı Bakı şəhəri ilə Rio-de-Janeyro şəhərinin qardaşlaşması" qanununu imzalamışdır.

2013-2015-ci illərdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyilə Azərbaycanın Braziliyadakı səfirliyi tərəfindən braziliyalı gənclər arasında "Mən Azərbaycan haqqında nə bilirəm?" adlı inşa müsabiqəsi keçirilmişdir. Ən maraqlısı isə 2015-ci ilin oktyabrında Azərbaycanın Braziliyadakı səfirliyində Heydər Əliyev Fondunun dəstəyi ilə istehsal edilmiş və Arzu Əliyevanın da layihə rəhbəri olduğu "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu?" sənədli filminin təqdimatı keçirilmişdi. Bunun ardınca noyabr-dekabr aylarında Porto Alegre şəhərindəki "Santander Kultural" mədəniyyət mərkəzində Azərbaycan bədii filmlərinin ilk nümayişi təşkil edilmişdi. Daha sonra 2016-cı ilin martında San-Paulo və aprelində Brazilia şəhərlərində fəaliyyət göstərən Braziliya Bankının mədəniyyət mərkəzlərində Azərbaycan kino həftəsi keçirilmişdir.

Son bir il qarşılıqlı münasibətlərdə bir sıra yaddaqalan hadisələrlə əlamətdardır. 2018-ci ilin mayında Braziliyanın Rio-de-Janeyro şəhərində Azərbaycanın bu ölkədəki səfirliyinin dəstəyi ilə şəhərin simvolu olan İsa Məsih abidəsi önündə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və Azərbaycan-Braziliya diplomatik əlaqələrin 25 illiyinə həsr edilmiş tədbir keçirilmişdir.

Azərbaycan ədib və şairlərinin bu ölkədə təbliğ olunması işində Heydər Əliyev Fondunun xidmətlərini də qeyd etmək lazımdır. Fondun Azərbaycan haqqında nəşrləri Braziliya Senatının kitabxanasına hədiyyə edilmişdir.

Belə bir cəhəti də vurğulamaq lazımdır ki, Braziliya müxtəlif etnik qrup, mədəniyyət və din nümayəndələrinin birgə yaşadığı və sülhsevər düşüncəni paylaşdığı bir ölkədir. Azərbaycan kimi Braziliya da tolerantlıq, xalqlar və sivilizasiyalar arasında dialoqa əsaslanan beynəlxalq prinsiplərə sadiqdir. Təəccüblü deyil ki, ölkələrimiz beynəlxalq ictimaiyyət qarşısında dayanan bir sıra problemlərə yanaşmada eyni mövqe nümayiş etdirirlər. Azərbaycan və Braziliya arasında genişlənən dialoq və əməkdaşlıq bugünkü mürəkkəb zamanda qlobal problemlərin həlli istiqamətində səmərəli və güclü vasitə ola bilər. Braziliya Federativ Respublikasının Prezidenti Mişel Temer dost Azərbaycan ilə münasibətlərə toxunarkən haqlı olaraq bildirmişdi ki, "Bizi ayıran böyük coğrafi məsafəyə baxmayaraq, əminəm ki, müxtəlif sahələrdəki əməkdaşlığımız daha da genişləncəkdir".

Bu gün əminliklə demək olar ki, davamlı və qətiyyətli iqtisadi inkişaf sürəti ilə irəliləyən müstəqil Azərbaycan Respublikası ilə dost Braziliya dövləti həyatın bütün sahələrində sıx əməkdaşlığı inkişaf etdirəcəklər, hər iki ölkənin iqtisadi tərəqqisinə və əhalisinin rifah halının yüksəldilməsinə yönəldilmiş səylərini davam etdirəcəklər. Çünki, bu iki ölkənin bir-birilə yaxınlaşması həm də iki qitənin yaxınlaşması, hər iki ölkə xalqlarının rifaha qovuşması, sülhün və əmin-amanlığın bərqərar olması deməkdir.

**Atamoğlan MƏMMƏDLİ.**

# İsrailli ekspert Arye Qut ABŞ mətbuatında dərc olunmuş məqaləni tənqid edib

**Bu günlərdə ABŞ-da çıxan ermənipərəst "Asbares" qəzetində yəhudilərə və İsrailə qarşı düşmənçilik ruhunda yazılmış "Erməni diplomat İsraildə Holokost barədə sual versə, nəticəsi nə olar?" sərlövhəli məqalə dərc olunub.**

Məqalənin müəllifi Ara Xaçaturyan yazır: "Erməni xalqının faciəsi tarixi məsələdir və bu, siyasi diskussiya probleminə çevrilməməlidir. Qoy, 1915-ci ildə Osmanlı imperiyasında baş vermiş hadisələrin düzgün qiymətini tarixçilər versinlər".

Ötən həftə İsrail xarici işlər nazirinin müavini (əslində İsrail XİN-in Avrasiya departamentinin rəhbərinin müavini) Aleksandr Ben-Tsvi bu sözləri belə adlandırılan "Erməni soyqırımı" memorialına gedəndən sonra söyləyib.

AZƏRTAC xəbər verir ki, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, İsraildəki "Cəmiyyət üçün beynəlxalq layihələr" qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli "The Jerusalem Post" qəzetində dərc olunmuş "Amerikanın ermənipərəst mətbuatında antiisrail ruhlu növbəti məqalə" adlı materialında bu barədə yazır.

Xaçaturyan sözünə davam edərək yazır: "Bu sözləri oxuyanda mən fikirləşdim ki, əgər Ermənistan xarici işlər nazirinin müavinlərindən biri Yerusəlimdəki Yad Vaşem - ümumdünya Holokost qurbanlarının xatirə mərkəzinə gedəndən sonra yəhudilərin nasist Almaniyası tərəfindən sistematik şəkildə məhv edilməsinin qurbanlarının xatirəsinə ehtiramını bildirəndən sonra "Holokost" sözünü işlətməkdən imtina etməyə başlasa, nə baş verər?"

Məqalə müəllifi qeyd edir ki, erməni KİV-lərində bu cür antiisrail ruhlu bəyanatlar çox geniş yayılıb. Arye Qut yazır: "İsrail 1915-ci il hadisələrini rəsmən soyqırımı kimi tanımır. Bu fakt praktiki olaraq daim Ermənistanda və erməni KİV-lərində ciddi antiisrail və antisemit isteriyasına səbəb olur. Ermənilər yəhudiləri və israilliləri çox günahlar törətməkdə ittiham edirlər. Belə "günahlardan" biri də "təbii yəhudi xudbinliyi"nin təzahürü və israillilərin "soyqırımı" konsepsiyasının özünü inhisarlaşdırmaq cəhdidir. Ermənistana xatırlatmaq istərdik ki, "soyqırımı" termininin özü 1915-ci il hadisələrindən xeyli sonra yaranıb və ona heç bir aidiyyəti yoxdur".

Qut vurğulayır ki, məqalə müəllifinin fikrincə, qondarma "erməni soyqırımı"nın tanınması İsrail ilə Ermənistan arasında münasibətləri möhkəmləndəcək. İsrailli ekspert soruşur: "Buna necə sakit yanaşmaq olar? Onlar bizə şərt qoyurlar ki, əgər İsrail "erməni soyqırımı"nı tanısa, Ermənistan onunla əməkdaşlıq edəcək. İsrail Knessetinin bu məsələni araşdırmasına lüzum yoxdur, çünki bu, sırf tarixi, daha dəqiq desək, elmi və mübahisəli məsələdir. Bu məsələdə aydın olmayan və ziddiyyətli məqamlar çoxdur. Burada yalan məlumatlar və saxtalaşdırmalar çoxdur. Qoy, Türkiyənin həmişə təklif etdiyi kimi, hər iki dövlət arxivləri açsın, alimlər əyləşib sənədlər və faktlar əsasında bu hadisələr barədə həqiqəti sübut etsinlər və dünyaya göstərsinlər. Məni həmişə heyrətləndirir: Əgər Ermənistan haqlıdırsa, o, nə üçün arxivlərin açılmasını istəmir, daha dəqiq desək, onları açmağa nə üçün qorxur?!"

Arye Qut "The Jerusalem Post" qəzetində dərc olunmuş məqaləsində sual edir: "Qoy, kimsə desin, biz qondarma "erməni soyqırımı"nı nəyin naminə tanımalıyıq - təkcə ondan ötrü ki, Ermənistan və ermənilər bizdən razı qalsınlar? Bu bizə lazım deyil. Ya da desinlər, yəhudi xalqının erməni xalqı qarşısında mənəvi öhdəliyi varmı?"

İsrailli ekspert vurğulayıb: "Mən soruşuram, hansı mənəvi məsuliyyətdən söhbət gedir?! Ermənistanın sabiq prezidenti Serj Sarkisyan iki il bundan əvvəl faşist və antisemit Qaregin Njdenin abidəsini rəsmən açdı. Dəhşətli Holokost cinayətlərində əli olmuş insanları milli qəhrəmanlara çevirəndə biz susmamalıyıq. Deyin, Yerevanda faşistə və antisemitə abidələr ucaldılmasına bizim münasibətimiz necə olmalıdır? Bu ölkə bəşəriyyət əleyhinə cinayətlər törətməkdə ittiham olunmuş faşist canini özünün qəhrəmanı adlandıra bilərmi? Erməni faşist və antisemit general Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi biabırçılıq və Holokost qurbanlarının xatirəsinə təhqirdir. Bundan sonra da bizdən xahiş edirlər ki, 1915-ci il faciəsini soyqırımı adlandıraq?!"

Məqalə müəllifi vurğulayır ki, müasir Almaniya öz gənclərini nasist Almaniyanın törətdiyi dəhşətlər barədə dönə-dönə xəbərdar edir. Bu dövlətdən fərqli olaraq erməni faşistlər Dro və Njdenin ətrafında şəxsiyyətə pərəstiş yaradılması bütövlükdə müasir erməni cəmiyyətinin böyük nöqsanıdır. Arye Qut yazır: "Onların şərəfinə sikkələr zərb edilir, onlara abidələr ucaldılır, onların həyat və fəaliyyəti barədə filmlər çəkilir - guya onlar, həqiqətən, xalq qəhrəmanlarıdır. İkinci Dünya müharibəsi dövründə nasist Vermaxtın 20 minlik erməni legionunun törətdiyi qəddar əməlləri tarix heç vaxt unutmayacaq. Erməni faşist komandiri general Dronun rəhbərlik etdiyi ermənilər minlərlə yəhudiyə qarşı ölüm marşlarında və onların məhv olunmasında iştirak ediblər. Yəhudi xalqı İkinci Dünya müharibəsi dövründə nasist Vermaxtın 20 minlik erməni legionunun törətdiyi qəddar əməlləri heç vaxt unutmayacaq".

Xaçaturyan özünün antiisrail ruhlu məqaləsində daha sonra yazır: "Mən Ermənistan XİN başçısının müavini Mnatsakanyan İsrail ilə diplomatik qalmaqala başlamasını təklif etmirəm, lakin o və digər vəzifəli şəxslər bu şəraitdə Ermənistanın fələstinlilərə silah verməsi və Holokosta hörmətsizlik göstərməsi imkanını nəzərdən keçirməlidirlər".

Arye Qut yazır: "Ermənilərin İsrail dövlətinin ünvanına şantajı və İran İslam Respublikası kimi Ermənistanın da fələstinli terrorçulara silah göndərməsi İsrail Dövlətinin vətəndaşı kimi məni qorxutmur, amma hiddətləndirir. Məlumdur ki, Ermənistan terrorçuluq və separatizm siyasətini dövlət səviyyəsində yürüdür. 26 ildən çoxdur ki, 5000-ə yaxın azərbaycanlı girov Ermənistanda əsirlikdədir, onlar hər gün dəhşətli işgəncələrə, ağlasığmaz təhqirlərə və alçaldılmağa məruz qalırlar. Həmin əsirlər arasında dağ yəhudiləri də var və onların qohumları tərəfindən Ermənistanın keçmiş prezidentinə müraciət edilməsinə baxmayaraq, ermənilər həmin yəhudiləri hələ də əsir saxlayır, amansız işgəncələrə məruz qoyurlar".

Ekspert vurğulayır ki, Ermənistan Azərbaycan ərazisinin 20 faizini - Dağlıq Qarabağı və bu bölgəyə heç bir aidiyyəti olmayan 7 ətraf rayonu işğal edib. Ermənistan bu ərazilərə iddia edir. Arye Qut yazır: "Yeri gəlmişkən, Yaxın Şərqdən olan muzdlu silahlılar da bu işğalda Ermənistanı dəstəkləyiblər. Erməni işğalı və etnik təmizləmələr ucbatından Azərbaycan 1 milyon qaçqını qəbul etmək məcburiyyətində qalıb. Münaqişə özü və Azərbaycan ərazilərinin işğal edilməsi bütün Cənubi Qafqaz regionunda sülhə və təhlükəsizliyə təhdid mənbəyi kimi qalır.

Qeyd etmək lazımdır ki, İsrailin Azərbaycanla bir sıra amillərə, o cümlədən insan amilinə əsaslanan çox səmimi münasibətləri var. Avrasiyada və bütün müsəlman aləmində heç bir ölkə İsrail ilə Azərbaycan qədər sıx əlaqə saxlamır. İki ölkə arasında diplomatik münasibətlərin 26 illik tarixi ərzində bu münasibətlərin strateji əhəmiyyətini və həyat qabiliyyətini nümayiş etdirən pozitiv hadisələr çox olub. Bu ölkələr yəhudi dövləti ilə əhalisinin əksəriyyəti müsəlmanlar olan dünyəvi dövlət arasında bu cür münasibətlərin zəruriliyini və strateji əhəmiyyətini sübut ediblər. Bizim dost dövlətlərimiz həqiqi və sabit strateji tərəfdaşlar kimi hərəkət edirlər. Azərbaycanlılar və yəhudilər əslində nəinki dinc yanaşı yaşamağı, həm də həqiqi dostlar olmağı, öz münasibətlərini inkişaf etdirməyi və möhkəmlətməyi bacarırlar".

Ekspert vurğulayır ki, Azərbaycanda yəhudilərə heç vaxt əcnəbilər kimi baxmayıblar, yəhudi xalqı burada heç vaxt sıxıntı, təhqir, talan və antisemit xarakterli hərəkətlərlə üzləşməyib, əksinə, özünü evində olduğu kimi hiss edib.

Arye Qur İsraildə çıxan nüfuzlu ingilisdilli "The Jerusalem Post" qəzetində dərc olunmuş məqaləsinin sonunda yazır: "Haçansa Azərbaycanda olmuş hər bir israilli təsdiq edə bilər ki, burada yaşayan yəhudilər hər hansı polis kordonundan keçmədən, rahatca sinaqoqa gedə bilər, əynində milli yəhudi geyimi, başında yəhudi papağı olduğu halda şəhərdə sakitcə gəzə bilər, halbuki hətta Qərbin inkişaf etmiş bəzi ölkələrində bu cür hərəkətlər həyat üçün təhlükəli ola bilər.

İsrail Dövləti Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüquq və dövlətlərin ərazi bütövlüyü prinsipi çərçivəsində nizamlamağa çağırır. Mənim fikrimcə, İsrail Cənubi Qafqazın lideri olan Azərbaycan ilə dostluğu və strateji münasibətləri daha da inkişaf etdirməli və möhkəmlətməli, hər hansı qüvvələrin bu qarşılıqlı münasibətlərə ziyan vurmasına imkan verməməlidir".

**AZƏRTAC**

# Yaşar Əliyev Sülh Mədəniyyəti Forumunda Azərbaycanda tolerantlıq və sülh ənənələrindən danışıb

**Azərbaycan milli və beynəlxalq səviyyələrdə mədəniyyətlərarası və dinlərarası dialoqun dəstəklənməsinə birinci dərəcəli əhəmiyyət verir.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev bu fikirləri sentyabrın 5-də BMT-nin Yüksək Səviyyəli Sülh Mədəniyyəti Forumundakı çıxışında söyləyib.

2012-ci ildən başlayaraq hər il keçirilən Yüksək Səviyyəli Forumun əsas məqsədi düzgün insani münasibətlər kimi məlum olan sülh mədəniyyəti yaradılması sahəsində fəal çalışan vətəndaşların, beynəlxalq təşkilatların və hökumətlərin qlobal hərəkatını gücləndirməkdir.

Y.Əliyev bu mühüm forumun çağırılmasına görə BMT Baş Assambleyasının sədri Miroslav Layçaka təşəkkürünü bildirərək qeyd edib ki, beynəlxalq birliyin sülh mədəniyyətini dəstəkləməyə yönəlmiş səyləri Baş Assambleyanın müvafiq qətnamələrindən güclü impuls alıb. Bu qətnamələrdə əsas prinsiplər və öhdəliklər elan olunub, milli, regional və qlobal səviyyələrdə bir sıra tədbirlər müəyyən edilib.

"2030-cu ilə qədər olan dövrdə davamlı inkişaf sahəsində Gündəlik"də hər kəs üçün bərabər imkanlar verən dinc cəmiyyətlərin möhkəmlənməsinə nail olmaq üçün ambisiyalı oriyentirlər müəyyən edilir. Dünya birliyi sülhün bərqərar olmasına və qorunub saxlanmasına yönəlmiş səylərdə bütün ölkələrin bərabər səviyyədə iştirakının tərəfdarıdır, dünyanın təbii və mədəni müxtəlifliyini tanıyır və hesab edir ki, bütün mədəniyyətlər və sivilizasiyalar davamlı inkişafın dəstəklənməsinə öz töhfələrini verə bilər.

Azərbaycanlı diplomat vurğulayıb ki, sülh mədəniyyətinin təşviq edilməsi həm də münaqişələrin nizamlanması baxımından vacibdir. O qeyd edib ki, Azərbaycan münaqişələrin qarşısının alınması, böhranlı vəziyyətlərə vaxtında və təsirli münasibət bildirilməsi, üzv dövlətlərin sülhün dəstəklənməsinə, sabit və firavanlaşan cəmiyyətlər yaradılmasına yönəlmiş səylərində onlara kömək göstərilməsi üçün baş katibin səylərini tamamilə dəstəkləyir.

Azərbaycan mədəniyyətlər və sivilizasiyalar arasında təbii körpü rolu oynayır. Bu rol Azərbaycanda bir sıra səmərəli beynəlxalq tədbirlər keçirilməsində, dialoqun və qarşılıqlı anlaşmanın təşviqinə yönəlmiş mühüm təşəbbüslər irəli sürülməsində təzahür edib. Belə təşəbbüslərdən biri də Azərbaycanın rəhbərliyi altında uğurla həyata keçirilən, dinlərarası və mədəniyyətlərarası dialoq haqqında biliklərin mübadiləsi üçün genişmiqyaslı platformanı təmin edən Bakı prosesidir. Y.Əliyev bildirib ki, baş katib sülh mədəniyyətinə kömək, dinlərarası və mədəniyyətlərarası dialoq, sülh naminə anlaşma və əməkdaşlıq haqqında son məruzəsində mədəniyyətlərarası dialoqun təbliğində Bakı prosesinin mühüm rolunu xüsusi qeyd edib. Bakı prosesinin ayrılmaz tərkib hissəsi olan, iki ildə bir dəfə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycan tərəfindən UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası, həmçinin Təhsil, Elm və Mədəniyyət Məsələlərinə dair İslam Təşkilatı ilə əməkdaşlıq şəraitində təşkil edilir.

Azərbaycanın BMT yanında diplomatik missiyasının rəhbəri qeyd edib ki, Baş Assambleya özünün 72/136 nömrəli, "Dinlərarası və mədəniyyətlərarası dialoqa, sülh naminə qarşılıqlı anlaşmaya və əməkdaşlığa kömək" adlı qətnaməsində mədəniyyətlərarası dialoqa yardım üçün mühüm qlobal platforma kimi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna istinad edib. Bu il Bakı prosesi özünün 10 illiyini qeyd edir. Bu il 4-cü Yüksək Səviyyəli Humanitar Forum Bakıda hökumətlərin, beynəlxalq təşkilatların, alimlərin, gənclərin və vətəndaş cəmiyyətinin nümayəndələrinin iştirakı ilə bu kontekstdə keçiriləcək.

Mədəniyyətlərarası dialoqa, sülh mədəniyyətinə və multikulturalizmə dair uğurlu təşəbbüslərin həyata keçirilməsi üçün BMT və daha geniş beynəlxalq ictimaiyyət tərəfindən daimi dəstək dinc və inklüziv cəmiyyətlər qurulması, stereotiplərin və yanlış təsəvvürlərin aradan qaldırılması, kompleks inkişaf konsepsiyasının həyata keçirilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Y.Əliyev qeyd edib ki, Azərbaycan Respublikası qarşılıqlı anlaşmanın və müxtəlifliyə hörmətin dəstəklənməsinə yönəlmiş səylərini davam etdirməyə çalışır və bu məqsədlə əməkdaşlığın genişləndiriləcəyinə ümid edir.

**AZƏRTAC**

Oqtay RZA.

*Özbəkistanda keçirilən Birinci Beynəlxalq Muğam Festivalının şərəfinə*

# Muğamın!

Yaranandan həmişə həmdəmidir söz muğamın,
Əbədi od kürəsindən nur alar göz muğamın!

Məcnunun ahı olub şimşəyi yandırsa, çalış,
Babadağdan da ağır siqlətinə döz muğamın!

“Rast”, “Rahab” şöhrətimiz, “Heyratı”, “Şur” qüdrətimiz,
Ulu sərkərdə desək, əsgəriyik biz muğamın!

Başqa xalqa, sənətə, musiqiyə hörmət üçün
Gərək əvvəl sevilə öz vətənin, öz muğamın!

Bakıda hamını heyran eləyən Mərkəzi var
Mehribandan soruşun kimliyini siz muğamın!

Xan, Əlövsət, Qulu, Şövkət... yaşayır qəlblərdə,
Üzeyir bəy adına gülşənini gəz muğamın!

Çinara oxşadanı nəğməli bağban sayıram,
Budağı, şaxələri sınmaz, əyilməz muğamın!

Sən Füzuli qəzəlindən güc alıb zirvəyə qalx,
Ya da dəryaya cumub qəvvası tək üz muğamın!

Məmləkətlər, qitələr yaxşı tanıyırlar onu,
Tər çiçək toplayaraq yollarına düz muğamın!

Eşit, Oqtay Rza, xoş, ruhlara məlhəm səsini -
Yaranandan həmişə həmdəmidir söz muğamın!

## • Faktlar və rəqəmlər

**M.MİRZƏ,**
**“Respublika”.**

### Əmtəəlik təbii qaz ehtiyatı 12,6 milyard kubmetr olmuşdur

DSK-nın məlumatına görə, 2018-ci ilin yanvar-iyun aylarında ölkədə 712,4 min ton dizel yanacağı, 620,3 min ton avtomobil benzini, 165,3 min ton aviasiya üçün və sair ağ neft, 116,4 min ton neft-kimya sənayesində istifadə üçün benzin, 119,9 min ton neft bitumu, 100,2 min ton maye qaz, 43,3 min ton sürtkü yağları istehlak edilmişdir.

Ölkədə əmtəəlik təbii qaz ehtiyatları 12,6 milyard kubmetr olmuş, onun 70,6 faizi hasilatın, 18,2 faizi ilin əvvəlinə mövcud olan ehtiyatın, 11,2 faizi isə idxalın hesabına formalaşmışdır. Ehtiyatların 43 faizi ölkə daxilində istehlak edilmiş, 35,7 faizi ixrac olunmuş, 3,9 faizi itkiyə getmiş, 17,4 faizi 2018-ci ilin iyulun 1-i vəziyyətinə ehtiyat kimi qalmışdır. Cari ilin yanvar-iyun aylarında dövlət büdcəsindən maliyyələşdirilən idarə, müəssisə və təşkilatlar tərəfindən 925,9 milyon KVT saat elektrik və 216,4 min Qkal istilik enerjisindən, 88,4 milyon kubmetr təbii qazdan istifadə edilmişdir.

### Əsas kapitala 3234,7 milyon manat vəsait

Cari ilin yanvar-iyul aylarında xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 3234,7 milyon vəsait yönəldilmişdir. Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 2578,9 milyon manatı Birləşmiş Krallıq, İsveçrə, Türkiyə, Malayziya, ABŞ, Yaponiya, Rusiya, İran və Çexiya sərmayədarlarına məxsus olmuşdur.

Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 61,9 faizini tikinti, yenidənqurma və genişləndirmə, 10,5 faizini əsaslı təmir, 8,7 faizini cari təmir, 18,9 faizini isə sair tikinti işləri təşkil etmişdir. Ümumi inşaat işlərinin 80,4 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetirmişlər.

### 1023,6 milyon manatlıq rabitə xidməti

2018-ci ilin yanvar-iyul ayları ərzində informasiya və rabitə müəssisələri 1023,6 milyon manatlıq xidmət göstərmişdir ki, onun da 72,1 faizi əhali tərəfindən istehlak olunmuşdur. 2017-ci ilin eyni dövrü ilə müqayisədə informasiya və rabitə xidmətlərinin dəyəri real ifadədə 7,1 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 81,2 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Xidmətlərdən əldə edilən gəlirin 48,4 faizi və ya 495,2 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşmışdır.

# AMEA-da elektron kənd təsərrüfatı mövzusunda iclas



**Azərbaycan Milli Elmlər Akademiyasında AMEA-nın, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) alimlərinin və Kənd Təsərrüfatı Nazirliyindən məsul nümayəndələrin iştrakı ilə birgə iclas keçirilib. Məqsəd elektron kənd təsərrüfatının yaradılmasında müasir elmi yanaşmalardan istifadə potensialı və perspektivlərin müzakirəsidir.**

İclası AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyev açaraq, aqrar sahənin inkişafında elmi təminatın rolundan danışıb. Qeyd edib ki, bu baxımdan torpaq tədqiqatlarının ən müasir standartlara uyğun aparılması və beynəlxalq elm məkanına inteqrasiyanın əhəmiyyəti böyükdür. Akademik onu da bildirib ki, hazırda respublikamızda aqrar sektorun inkişafına göstərilən diqqət fonunda aqrar elmə tələbat artıb: “AMEA ilə Kənd Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq üçün geniş imkanlar yaranıb. Bu baxımdan müasir torpaqşünaslıqda qlobal trendlərə həsr olunmuş təqdimatlar elmi və praktiki baxımdan olduqca əhəmiyyətlidir”.

Sonra AMEA-nın müxbir üzvü Amin İsmayılov Azərbaycan torpaqşünaslığının beynəlxalq inteqrasiya prosesində MDU-nun alimləri ilə birgə fəaliyyətə dair mövzuda çıxış edib. Alim torpaqşünaslıq elmində beynəlxalq torpaq-coğrafi məkana inteqrasiya problemlərindən və bu istiqamətdə görülən işlərdən bəhs edib.

M.V.Lomonosov adına MDU-nun, Ərzaq təhlükəsizliyi üzrə Avrasiya Mərkəzinin və Data Mərkəzinin nümayəndələri, professor İrina Alyabina və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatından ekspert Oleq Qolozubov “Torpaq-coğrafi Verilənlər Bazası. Torpaq Data Mərkəzləri: Rusiya və postsovet məkanında həyata keçirilmə təcrübəsi. (Global Trend in Modern Soil Sciences)” mövzusunda təqdimatla çıxış ediblər. Təqdimatda adıçəkilən mərkəzlərin fəaliyyəti, eləcə də onların iştirak etdikləri beynəlxalq layihələr haqqında məlumat verilib. AMEA ilə elmi əməkdaşlıq imkanlarından danışılıb.

Daha sonra kənd təsərrüfatı nazirinin müşaviri aqrar elmlər üzrə fəlsəfə doktoru İlham Bayramov “Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində aqrar elmin rolu” və Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzinin baş direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Vüqar Babayev “AMEA və Kənd Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq perspektivləri” mövzularında çıxış ediblər.

İclasda ərzaq təhlükəsizliyi, torpaq tədqiqatlarında standartlar, harmonizasiya və s. mövzularda fikir mübadiləsi aparılıb. Aqrar elmlərin inkişafı sahəsində qarşılıqlı təcrübə mübadiləsi, məsləhətləşmələr, elmi-tədqiqat işlərinin səmərəliliyinin artırılması məqsədilə birgə tədbirlərin həyata keçirilməsi, habelə sözügedən sahədə elmi və və elmi-təşkilati fəaliyyəti zamanı tərəflərin qarşılıqlı dəstək göstərməsi məsələləri müzakirə edilib.

**AMEA Rəyasət Heyətinin İctimaiyyətlə əlaqələr şöbəsi.**

# Yaponiya xarici işlər nazirinin xanımı Uşaq Bərpa Mərkəzində

**Yaponiya xarici işlər naziri Taro Kononun ölkəmizə səfəri çərçivəsində xanımı Kaori Kono Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud uşaqlar üçün yaradılmış tibbi-sosial reabilitasiya şəraiti ilə tanış olub.**

Bu barədə nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən aldığımız məlumata görə, qonağa bildirilib ki, ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin gücləndirilməsi, sağlamlıqlarının bərpası, tibbi-sosial reabilitasiyası aparılan sosial siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyevin tapşırığı əsasında son illərdə bu sahədə infrastrukturun təkmilləşdirilməsi işləri çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Uşaq Bərpa Mərkəzində də ən müasir tələblərə uyğun reabilitasiya şəraiti yaradılıb. Müəssisədə aparılan işlərin davamı kimi, cari ilin 8 ayında burada 2 mindən çox sağlamlıq imkanları məhdud uşağa stasionar və ambulator qaydada bərpa müalicəsi xidmətləri göstərilib.



Xanım Kaori Kono Uşaq Bərpa Mərkəzində yaradılan reabilitasiya şəraiti, informasiya-məsləhət və tədris, tibbi-sosial reabilitasiya və funksional diaqnostika şöbələrinin fəaliyyəti ilə tanış olub. Reabilitasiya kursu keçən uşaqlarla görüşən K.Kono Mərkəzdəki reabilitasiya şəraiti, burada aparılan işlərlə bağlı müsbət təəssüratlarını bölüşüb. O, gələcəkdə sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası sahəsində ölkəsi ilə təcrübə mübadiləsinin aparılmasının məqsədəuyğun olduğunu deyib.

**Mustafa KAMAL,**
**“Respublika”.**

# İQTİSADİYYAT XƏBƏRLƏRİ

### Dövlət Neft Fondu bildirir ki...

Dövlət Neft Fondunun İctimaiyyətlə əlaqələr departamentindən verilən məlumata görə, 2001-ci ildən AÇG yatağı üzrə əldə olunan ümumi gəlirlər (01.09.2018-ci il tarixədək) 135 142 milyon ABŞ dolları məbləğində olmuşdur.

Təkcə bu ilin səkkiz ayı ərzində qazanılan vəsaitin miqdarı 6 656 milyon ABŞ dolları təşkil etmişdir. O cümlədən, “Şahdəniz” yatağı üzrə kondensatın satışından əldə olunan gəlirin miqdarı 115 milyon ABŞ dolları həcmində olmuşdur.

2007-ci ildən etibarən “Şahdəniz” yatağından çıxarılan qazın satışı ilə əldə olunan gəlirin miqdarı 2 506 milyon ABŞ dolları təşkil etmişdir.

* * *

İctimaiyyətlə əlaqələr departamentindən verilən digər məlumatda bildirilir ki, Dövlət Neft Fondu tərəfindən cari ilin avqust ayı ərzində 733,7 milyon ABŞ dolları məbləğində vəsait satılıb.

Müqayisə üçün qeyd edək ki, ötən ay satılan vəsaitin miqdarı 536,6 milyon ABŞ dolları həcmində olmuşdur.

### SOCAR Gürcüstanın Kulevi terminalına 96 milyon məbləğində investisiya yatırıb

2008-2017-ci illər ərzində SOCAR Gürcüstanın Kulevi neft terminalına (Black Sea Terminal) 96 milyon ABŞ dolları məbləğində vəsait xərcləyib.

Bu barədə SOCAR-ın 2017-ci il üzrə illik hesabatında bildirilir.

Həmçinin qeyd olunur ki, göstərilən məbləğin 10 milyon dolları 2017-ci ilin payına düşür.

Məlumat üçün bildirək ki, Kulevi neft terminalı və limanı Gürcüstan Respublikasının Xobi regionunda, Qara dəniz sahilində yerləşir. Terminalın 2006-cı ildə alınması və 2008-ci ildə tikintisinin başa çatdırılması ARDNŞ-nin Gürcüstan ərazisində ən əhəmiyyətli investisiya yatırımlarından biridir. Kulevi neft terminalı və limanı neft və neft məhsullarının qəbulu, saxlanması və tankerlərə yüklənməsi üçün nəzərdə tutulub.

1999-cu il sentyabrın 8-də Gürcüstanın keçmiş prezidenti Eduard Şevardnadze Kulevi terminalının tikintisi barədə sərəncam vermişdir. Tikinti işlərinə 2000-ci ildə başlanılmış, bir qədər sonra maliyyə çatışmazlığı və ətraf mühitə dəyən ziyan səbəbindən dayandırılmışdır. Tikinti işlərinə 2004-cü ilin sentyabrında start verilmişdir. 2006-cı ildə Azərbaycan Dövlət Neft Şirkətinə satılan terminal, 2008-ci ilin may ayından işə düşmüşdür. 2012-ci ildə fəaliyyəti genişləndirilərək propilenin daşınması üçün yeni kompleks tikilmişdir.

Terminal müasir infrastruktura malikdir. Dörd xətli dəmiryol estakadası eyni zamanda 168 sisternin boşaldılmasına imkan verir. 16 rezervuardan ibarət çən parkının ümumi tutumu 320 000 $m^3$-ə bərabərdir. Dəniz limanı 40 000 və 100 000 tonluq neft tankerlərini qəbul edə bilən yükləmə platformalarından ibarətdir ki, bunların da hər birində eyni zamanda uyğun həcmli neft tankerləri qəbul edilə və 8 000-12 000 $m^3$/saat tezliyi ilə yüklənə bilər.

2008-2017-ci illər ərzində terminal vasitəsilə 23 milyon ton həcmində neft məhsulu daşınmışdır. Təkcə 2017-ci il ərzində bu göstərici 1 606 354 ton olmuşdur.

### “Cənub Qaz Dəhlizi”nin tərkib hissəsi olan layihələrə investisiya qoyuluşu

İndiyədək “Cənub Qaz Dəhlizi”nin tərkib hissəsi olan layihələrə tərəfdaşlarla birgə təxminən 31,4 milyard dollar məbləğində vəsait sərf edilib.

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq “Cənub Qaz Dəhlizi” Qapalı Səhmdar Cəmiyyətindən bildirilib.

Məlumat üçün qeyd edək ki, “Cənub Qaz Dəhlizi” Qapalı Səhmdar Cəmiyyəti (Cəmiyyət) “Şahdəniz” qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənubi Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 25 fevral 2014-cü il tarixli 287 saylı Sərəncamının (Sərəncam) icrasına uyğun olaraq, “Şahdəniz” qaz-kondensat yatağının istismarının ikinci mərhələsi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri və Trans-Adriatik Boru Kəməri layihələrinin idarə olunmasını təmin etmək məqsədilə nizamnamə kapitalı 100 milyon ABŞ dolları məbləğində, səhmlərinin 51 faizi dövlət mülkiyyətinə, 49 faizi Dövlət Neft Şirkətinə məxsus olmaqla SOCAR-ın tərkibində yaradılmışdır.

“Şahdəniz-2” layihəsi üzrə ümumi kapital xərcləri hazırda 22,7 milyard ABŞ dolları təşkil edir və bu ilin iyul ayının sonunadək həmin layihəyə 18 milyard dollar xərclənib. Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) layihəsinin dəyəri 4,5 milyard dollardır və bu layihəyə göstərilən müddətdə 4,2 milyard dollar sərf olunub. Kapital xərcləri 8 milyard dollar olan Trans-Anadolu (TANAP) layihəsinə iyulun sonunadək 5,6 milyard dollar xərclənib”, - deyə Cəmiyyətdən verilən məlumatda bildirilir.

Həmçinin qeyd olunur ki, dəyəri 4,5 milyard avro məbləğində qiymətləndirilən “Trans-Adriatik” (TAP) layihəsinə isə iyul ayının sonuna qədər 3,1 milyard avro (təqribən 3,6 milyard dollar) sərf edilib.

**Səfər MAHMUDZADƏ,**
**“Respublika”.**

# DÜNYA BUGÜN

*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

### ❑ ƏRDOĞAN SURİYA İLƏ BAĞLI DANIŞIQLARA XÜSUSİ DOSYE İLƏ GEDİR



Sentyabrın 7-də Tehranda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya prezidenti Vladimir Putin və İran prezidenti Həsən Ruhaninin görüşü keçiriləcək. “Sputnik” informasiya agentliyinin məlumatına görə, üçtərəfli görüşə Ərdoğan əhatəli bir Suriya dosyesi ilə gedir.

Verilən xəbərə görə, Türkiyə tərəfi Tehran sammiti zamanı Rusiyanın və Suriya hərbi qüvvələrinin İdlibə qarşı hava əməliyyatlarından narahat olduğunu dilə gətirəcək. Ərdoğan həmçinin PYD terror təşkilatının Suriya torpaqlarının 26 faizini əhatə edən bir bölgədə neftçıxarma məntəqələrinə yerləşdiyini də diqqətə çatdıracaq.

Ankaranın kəşfiyyat məlumatlarına görə, PYD ABŞ-ın da dəstəyini alaraq Fərat çayının şərqindəki neft məntəqələrində yerləşməyə başlayıb. “İdlib şəhəri Suriyanın 3 faizini, lakin PYD-nin məskunlaşmağa başladığı Fəratın şərq hissəsi ölkənin 26 faizini təşkil edir. Suriyanın ərazi bütövlüyünə əsas təhdid təşkil edək PYD-dir”, - deyə rəsmi Ankaranın bəyanatında bildirilir.

Məlumata görə, Rəcəb Tayyib Ərdoğanın diqqət çəkəcəyi digər bir mövzu isə Afrin bölgəsi ilə bağlı olacaq. Ankaranın əlində olan məlumatlara görə, PYD/YPG yenidən Afrinə qayıtmağın yollarını Bəşər Əsəd rejimi ilə yaxın təmas quraraq axtarır. Qeyd edilir ki, Ankara bu vəziyyəti artıq Rusiyaya ətraflı şəkildə izah edib.

Eyni zamanda, rəsmi Ankara Türkiyənin daxili təhlükəsizliyini təhdid edən PKK-nın, PYD/YPG ilə yanaşı, İraq və İrandakı qanadlarından da dəstək almağa davam etdiyinə dair mühüm məlumatlara malikdir. Belə ki, təşkilatın regiondakı fəallığı kəşfiyyat təyyarələri vasitəsilə fasiləsiz izlənilir.

Qeyd edək ki, Suriya böhranının həllinə dair liderlərin üçtərəfli zirvə görüşünün birincisi ötən il Soçidə, ikincisi isə cari ilin aprel ayında Ankarada keçirilib.

### ❑ ANGELA MERKEL: TÜRKİYƏ İQTİSADİYYATININ İNKİŞAFI ÖLKƏMİZİN MARAQLARINA UYĞUNDUR



Türkiyə iqtisadiyyatının sağlam şəkildə inkişafı Almaniyanın strateji maraqlarına uyğundur. “TRT” telekanalının məlumatına görə, bunu Almaniya kansleri Angela Merkel “RTL/n-tv” telekanalına verdiyi müsahibəsində bəyan edib.

A.Merkəl deyib: “Türkiyənin iqtisadiyyatının zəifləməsinə səbəb olacaq hər hansı bir addım atsaq öz maraqlarımıza qarşı hərəkət etmiş olarıq”.

Türkiyə-Almaniya münasibətlərində fərqli düşünməyin vacibliyini dilə gətirən Angela Merkel Almaniyada 3 milyon türkün yaşadığını və bu səbəbdən də iki ölkənin xüsusilə bir-birinə bağlı olduğunu qeyd edib.

Suriyanın İdlib şəhərindəki son vəziyyətə və Bəşər Əsəd rejiminin mümkün hücumuna toxunan xanım Merkel İdlibdə insani fəlakətin yaşanılmasına yol verməməyə çağırıb.

Eyni zamanda, Angela Merkel mümkün əməliyyat və mülki vətəndaşların qorunması barədə Rusiya prezidenti Vladimir Putin və prezident Rəcəb Tayyib Ərdoğan ilə də müzakirə etdiyini dilə gətirib.

### ❑ DÜNYA ACLIQ BÖHRANI İLƏ ÜZLƏŞƏ BİLƏR



Dünya aclıq böhranı ilə qarşı-qarşıya qala bilər. “TRT” telekanalının verdiyi məlumata görə, bununla bağlı “Sience” jurnalında geniş məqalə dərc edilib.

Məqalədə qeyd edilir ki, artan qlobal istiləşmə məhsullara ciddi ziyan vuran həşəratların sayında dünya miqyasında ciddi artıma səbəb olur.

Eyni zamanda, aparılan elmi araşdırmada məhsul yeyən həşəratların sayındakı bu artımın gələcəkdə qıtlıqla nəticələnə biləcəyi bildirilir.

Tədqiqatçılar istiliyin və həşərat sayındakı artımın qida məhsullarına təsir edə biləcəyini tədqiq etmək üçün onların düyü, qarğıdalı və buğda üzərində təsirini müəyyənləşdiriblər.

Koloradanun Boulder Universitetində işləyən tədqiqatçı professor Coş Teksbari iqlim dəyişikliyinə görə həşəratların vurduğu ziyanın iqlimin birbaşa məhsul üzərindəki təsirindən daha böyük ola biləcəyini qeyd edib.

Araşdırmalar göstərib ki, dünyanın ən böyük qarğıdalı istehsalçısı ABŞ-ın 2050-ci ilədək həşəratlarla bağlı qarğıdalı təsərrüfatına təqribən 36 faiz həcmində ziyan dəyəcəyi ehtimal olunur.

Digər tərəfdən dünyanın ən böyük düyü istehsalçısı Çinin 2050-ci ilədək illik 27 milyon tondan artıq düyüsü həşərat mənşəli zərərlə qarşı-qarşıya qala bilər.

Avropa ölkələrindəki buğdada da həşəratlara görə ciddi məhsul itkisi yaşana bilər. Təkcə Fransa 2050-ci ilədək təqribən 2,5 milyon ton buğda istehsalında ziyana düşə bilər.

### ❑ SURİYA NATO-nun XƏBƏRDARLIĞINA MƏHƏL QOYMADI



Suriya prezidenti Bəşər Əsədə bağlı ordu birləşmələri sentyabrın 6-da səhər saatlarından başlayaraq İdlibin bir sıra kəndlərini artilleriya atəşinə tutub. “Sputnik” informasiya agentliyinin verdiyi məlumata görə, əhalinin yaşadığı yerlərə endirilən top zərbələri nəticəsində bir mülki vətəndaş həlak olub, iki nəfər isə yaralanıb.

Hadisə ilə bağlı Fransa ordusundan açıqlama verilib. Fransa Silahlı Qüvvələrinin Baş Qərargah rəisi bildirib ki, İdlibdə kimyəvi silahdan istifadə ediləcəyi təqdirdə, onlar Suriyadakı hədəflərə zərbələr endirəcəklər.

Eyni zamanda, xəbər verilir ki, bir neçə gün öncə də İdlibin qərbinə və cənub-qərbinə Rusiyanın döyüş təyyarələrinin təşkil etdiyi hücumlarda 10 nəfər həyatını itirmiş, 20 nəfər yaralanmışdı.

Regionda qətliamın yaşanması ilə bağlı narahatlıq mövcuddur. Bölgədə silahlı müxaliflərlə yanaşı 4 milyona yaxın mülki əhali yaşayır.

Həmçinin bildirilir ki, Donald Tramp bugünlərdə İdliblə bağlı xəbərdarlıq edib. O deyib: “Suriya prezidenti Bəşər Əsəd İdlib şəhərinə düşünmədən hücum etməməlidir. Ruslar və iranlılar bu mümkün insanlıq faciəsində iştirak edərək yanlış addım atırlar. Yüz minlərlə insan ölə bilər. Bunun baş verməsinə icazə verilməməlidir”.

### ❑ TÜRKİYƏNİN İLK YERLİ HELİKOPTERİNİN UÇUŞU HƏYATA KEÇİRİLİB



Türkiyənin yerli texnologiya vasitəsilə istehsal edilən ilk “T625” helikopteri sınaq uçuşunu həyata keçirib. Bu barədə “TRT” telekanalı məlumat yayıb.

Türkiyənin Müdafiə Sənayesi Katibliyinin sədri İsmayıl Dəmir tamamilə yerli texnologiyalarla istehsal edilən bu helikopterin ilk uçuşunun ölkə üçün xeyirli olmasını arzulayıb.

“T625” helikopteri çətin iqlim və coğrafi şəraitlərdə, yüksək hündürlükdə və yüksək temperaturda, gecə və gündüz uçmaq qabiliyyətinə malikdir.

Helikopter geniş gövdə qurğusuna sahib olduğuna görə, yük, təcili yardım, axtarış və xilasetmə, eləcə də dənizdən heyətin sahilə daşınması üçün istifadə edilə biləcək.

Məlumata görə, 2 ekipaj və 12 sərnişin tutumlu “T625” helikorterinin kütləvi istehsalına 2021-ci ildə başlanacağı nəzərdə tutulub.

Helikopterin Türkiyə Silahlı Qüvvələri və digər qurumların bu sahədəki ehtiyaclarının xüsusi şəkildə ödənilməsi məqsədilə Müdafiə Sənayesi Katibliyinin koordinasiyasında Türk Aviasiya Kosmos Sənaye (TUSAŞ) tərəfindən istehsalına başlanılması 2010-cu ildə qərara alınıb.

### ❑ BAKTERİYA İLƏ MÜBARİZƏ APARAN HÜCEYRƏLƏR YARADILIB



ABŞ alimləri laboratoriya şəraitində bakteriya ilə mübarizə apara bilən süni hüceyrələr yaradıblar. Bu barədə “TRT” telekanalı məlumat yayıb.

Nəticələri “ACS Applied Materials and Interfaces” jurnalında dərc olunan tədqiqatda yaradılan süni hüceyrələrin canlı hüceyrələrin bəzi xüsusiyyətlərini təqlid etdiyi və laboratoriya şəraitində “E.coli” bakteriyasını müəyyən edərək, məhv etdiyi bildirilir.

Amerika Birləşmiş Ştatlarının Kaliforniya Universitetinin alimlərinin liposomlardan istehsal etdikləri “leqo bloklarına” bənzədilən süni hüceyrələrin ömrünün qısa olduğu və bölünmədiyi qeyd edilir.

Tədqiqatın rəhbəri professor Çiminq Tan deyib: “Süni hüceyrələr reaksiya verə və bakteriya ilə qarşılıqlı təsirdə ola bilirlər. Həmçinin onlar yerləşdiyi mühitdən çox az asılı olur və bakteriyanı müəyyən edərək məhv edə bilən sistemlər kimi hərəkət edirlər”.

Bununla yanaşı, xəbər verilir ki, bu antibakterial süni hüceyrələrdən gələcəkdə başqa müalicələrə güclü müqavimət göstərən infeksiyalarla mübarizədə istifadə olunmasına ümid edilir. ■

# Azərbaycan-Kosovo oyunu ərəfəsində milli komandamızın baş məşqçisi və üzvləri mətbuat konfransı keçiriblər

**UEFA Millətlər Liqası turniri çərçivəsində sentyabrın 7-də saat 20:00-da Bakı Olimpiya Stadionunda keçiriləcək Azərbaycan-Kosovo oyunu ərəfəsində milli komandamızın baş məşqçisi Qurban Qurbanovun, yığmanın üzvləri Kamran Ağayevin və Qara Qarayevin iştirakı ilə mətbuat konfransı keçirilib.**

AZƏRTAC xəbər verir ki, mətbuat konfransında oyunla bağlı fikirlərini bölüşən Qurban Qurbanov deyib: “Uzun müddətdən sonra ilk rəsmi oyunumuz olacaq. Bir neçə gündür ki, komanda ilə birlikdəyik və rəqibi təhlil edirik. Hazırlığı pis keçməmişik. Futbolçular istəklidir, hər biri yaxşı oyun göstərməyə çalışacaq. Rəqibin oyunlarına baxıb təhlil etmişik. İnanıram ki, sentyabrın 7-də azarkeşlərimizi məzmunlu futbolla sevindirə biləcəyik”.

Komandanın qapıçısı Kamran Ağayev qeyd edib: “Yaxşı nəticə qazanmaq üçün əlimizdən gələni edəcəyik. Biz öz oyunumuzu düşünürük. Rəqib komanda haqqında məlumatım var və futbolçuları təhlil etmişik. Bizə verilən göstərişi komanda halında düzgün yerinə yetirsək, yaxşı nəticə əldə edə bilərik. Əsas özümüzə inanmalıyıq. İnşallah, uğurlu nəticə qazanacağıq”.

UEFA Millətlər Liqasının digər turnirlərdən fərqləndiyini vurğulayan yığmamızın müdafiəçisi Qara Qarayev bildirib: “Bu turnirin sonu bizim üçün çox faydalı ola bilər. Rəqibin potensialına bələdik. Sabah meydanda əlimizdən gələnin ən yaxşısını etməyə çalışacağıq. Bu turnirdə bütün futbolçularımızda həyəcan var. Bu dəfə hər şey tamamilə fərqlidir. Azarkeşlərin bu turnirdə komandadan yaxşı nəticə gözləməsi bizim üçün böyük motivasiyadır və mən onları həmişə daha çox dəstək olmağa çağırıram. Oyunda da ən çox ehtiyac duyduğumuz azarkeşlərimizin dəstəyidir”.

**AZƏRTAC**

# Cavan xırdabuynuzlu heyvanların brusellyoz xəstəliyinə qarşı peyvəndlənməsi

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti (DBX) bildirir ki, Azərbaycan Respublikasında xırdabuynuzlu heyvanların brusellyoz xəstəliyinə qarşı İordaniya istehsalı olan “REV-1” vaksini ilə peyvəndləmə aparılır. 2018-ci ilin aprel ayından növbəti peyvəndləmə kampaniyasına başlanılıb. Bu kampaniya çərçivəsində avqust ayının 1-nə kimi ölkə üzrə 3-8 aylıq dişi xırdabuynuzlu heyvanların peyvəndlənməsi aparılıb.

Hazırda peyvəndləmə 3 aylıqdan yuxarı yaş qrupuna daxil olan və müxtəlif səbəblərdən peyvənd edilməmiş dişi, lakin boğaz olmayan xırdabuynuzlu heyvanların peyvəndlənməsi davam etdirilir.

Dövlət Baytarlıq Xidməti və Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti ilə Dünya Bankının birgə həyata keçirdiyi “Kənd Təsərrüfatının Rəqabət Qabiliyyətinin Gücləndirilməsi Layihəsi”nin mütəxəssisləri xırdabuynuzlu heyvanlarda brusellyoz xəstəliyinə qarşı peyvəndləmənin gedişatını və keyfiyyətini qiymətləndirmək məqsədi ilə birgə Masallı, Neftçala, Siyəzən, Qusar, Oğuz, Zaqatala, Şamaxı, Yevlax, Şəmkir, Beyləqan, Ağcabədi və Sabirabad rayonlarına səfər ediblər.

Səfər çərçivəsində peyvəndləmənin həyata keçirilməsində “soyuq zəncir” prinsipinə və təhlükəsizlik qaydalarına əməl olunmasına, xüsusi geyim formalarından və qoruyucu vasitələrdən istifadə edilməsinə, eləcə də ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün biotəhlükəsizlik torbalarından istifadə olunmasına və peyvəndləmə aparılan ərazilərin dezinfeksiya edilməsinə xüsusi diqqət yetirilib.

Qeyd edək ki, rayon baytarlıq idarələri və sahə baytarlıq məntəqələri brusellyoz xəstəliyinə qarşı aparılan tədbirlər zamanı lazım olan avadanlıq, ləvazimat, vaksin, dezinfeksiya maddələri və xüsusi geyim vasitələri ilə təmin ediliblər.

2018-ci ilin yanvar-iyul ayları ərzində Azərbaycan Respublikası ərazisində Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təsdiq olunmuş epizootik tədbirlər planına uyğun olaraq ölkə ərazisində iri və xırdabuynuzlu heyvanların brusellyoz xəstəliyinə qarşı peyvəndləmə və qanalma tədbirləri aparılıb. 2018-ci ilin ilk 8 ayı ərzində brusellyoz xəstəliyinə qarşı 1471330 baş xırdabuynuzlu heyvanda “Rev-1” vaksini ilə, 366947 baş iribuynuzlu heyvanda “S-19” vaksini ilə peyvəndləmə işləri aparılıb.

Həmçinin, həssas heyvanlar arasında brusellyoz xəstəliyini aşkar etmək, xəstəliyin yayılmasının qarşısını almaq məqsədi ilə 2018-ci ilin ilk 8 ayı ərzində 518760 baş iribuynuzlu, 150764 baş xırdabuynuzlu heyvanlardan qan nümunəsi alınaraq seroloji müayinə edilib.

Dövlət Baytarlıq Xidməti bildirir ki, hazırda ölkə ərazisində brusellyoz xəstəliyinə qarşı peyvəndləmə və qanalma tədbirləri davam etdirilir.

**Nəriman CAVADOV,**
**“Respublika”.**

TƏKRAR

“Azərişıq” ASC 2018-ci ildə 110/35/10 kV-luq “Beyləqan”, 110/35/6 kV-luq “Bakı ETK-4” və 110/35/10 kV-luq “Ağstafa” yarımstansiyalarında giriş-çıxış xətlərinin və köməkçi avadanlıqların quraşdırılması üzrə işlərin satın alınması məqsədilə

AÇIQ TENDER ELAN EDİR

Tender 3 (üç) LOT üzrə keçirilir:

LOT-1. 110/35/10 kV-luq “Beyləqan” yarımstansiyasında giriş-çıxış xətlərinin və köməkçi avadanlıqların quraşdırılması üzrə işlərin satınalınması - 300 manat

LOT-2. 110/35/6 kV-luq “Bakı ETK-4” yarımstansiyasında giriş-çıxış xətlərinin və köməkçi avadanlıqların quraşdırılması üzrə işlərin satınalınması - 300 manat

LOT-3. 110/35/10 kV-luq “Ağstafa” yarımstansiyasında giriş-çıxış xətlərinin və köməkçi avadanlıqların quraşdırılması üzrə işlərin satınalınması - 300 manat

“Azərişıq” ASC
VÖEN: 9900069391
Hesab No:
AZ83AİİB33020029441802068118
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab No:
AZ37NABZ01350100000000001944
SWİFT Code: AİİBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93 daxili (22-83))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 26 sentyabr 2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 03 oktyabr 2018-ci il saat 16-00-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 04 oktyabr 2018-ci il tarixində saat 16-00-da Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

“AZƏRİŞIQ” ASC-nin
TENDER KOMİSSİYASI.

## Kənd Təsərrüfatı Nazirliyi

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**LOT 1:** İKT avadanlıqlarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, təcrübə, maliyyə vəziyyəti, zəmanət müddəti.

Tələb olunan mallar tenderin əsas şərtlər toplusunda nəzərdə tutulmuş sayda və müddətdə təyin edilmiş məntəqəyə təhvil verilməlidir.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyov, 80 ünvanından (Hökumət Evi, 7-ci mərtəbə) (Əlaqələndirici şəxs: İsmayılov Nail, tel: (+99412) 498 12 96) ala bilərlər.

**İştirak haqqı:**

**LOT 1: 300 ( üç yüz) manat.**

*Təşkilat: Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə şöbəsi*
*Hesab nömrəsi:*
*AZ94CTRE00000000000002188301 (AZN) (Mərkəzi Aparat);*
*VÖEN: 1401555071 (Dövlət Xəzinədarlığı Agentliyi)*
*VÖEN: 1700069791 (Kənd Təsərrüfatı Nazirliyi)*
*Bank: Dövlət Xəzinədarlığı Agentliyi*
*Büdcə səviyyəsi kodu: 7*
*Büdcə təsnifatı kodu: 142340*
*Kodu: 210005*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T. Code: CRTEAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı gündən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifinin dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*

*-iddiaçının son üç ildəki fəaliyyət haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender təklifi və bank zəmanəti hər biri ayrı zərflərdə və ya eyni zərfdə olduğu halda, zərfin üzərində sıralama nömrəsi ilə sənədlərin adları yazılmalı, iddiaçının möhürü və imzası ilə təsdiqlənmiş formada təqdim olunmalıdır. Əks təqdirdə təklif edilən sənədlər qəbul edilməyəcək.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 10 oktyabr 2018-ci il saat 18.00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 18 oktyabr 2018-ci il saat 18.00-a qədər Bakı şəhəri, Üzeyir Hacıbəyov 80 (Hökumət Evi, 7-ci mərtəbə) ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 19 oktyabr 2018-ci il tarixdə, saat 11.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti tərəfindən aviasiya yanacağının saxlanılması üçün istifadə olunan çənlərin satınalınması məqsədilə 19 iyul 2018-ci il tarixində “Respublika” qəzetində və dövlət satınalmalarının rəsmi internet saytında dərc edilən 1 lotdan ibarət açıq tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə uyğun olaraq baş tutmamış hesab edilir.

**Tender Komissiyası.**

“Respublika” qəzetinin 21 iyul və 31 iyul 2018-ci il tarixli nömrəsində dərc olunmuş Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin “Dəftərxana və təsərrüfat xərcləri” və “İdarənin xərcləri” maddəsi ilə əlaqədar açıq tender ləğv olunmuşdur.

## Azərbaycan Dövlət İqtisad Universiteti təmir işlərinin aparılması ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

**Lot-1.** Təmir işlərinin satın alınması

Tenderdə iştirak etmək üçün iddiaçılar 300 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, İstiqlaliyyət küçəsi 6 ünvanında yerləşən Azərbaycan Dövlət İqtisad Universitetinin əsas binasından ala bilərlər.

**Əlaqələndirici şəxs: Aqil Əhmədov.**

**Əlaqə telefonu: (012) 492-59-23**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

*VÖEN 1700091281*
*Bankın adı: “Kapital Bank” ASC-nin Səbail filialı*
*VÖEN 9900003611*
*M/H AZ37NABZ01350100000000001944*
*H/H: AZ96AİİB33010019443507362105*
*Kodu: 200059*
*SWİFT: AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifinin dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən 60 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 15 oktyabr 2018-ci il tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 22 oktyabr 2018-ci il saat 17:00-a dək Azərbaycan Dövlət İqtisad Universitetinin Bakı şəhəri, İstiqlaliyyət küç. 6 ünvanında yerləşən əsas binasına yazılı formada təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 23 oktyabr 2018-ci il, saat 11:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin, Bakı şəhəri, İstiqlaliyyət küç. 6 ünvanında yerləşən əsas binasının akt zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## Azərbaycan Memarlıq və İnşaat Universiteti

## AÇIQ TENDER ELAN EDİR

Azərbaycan Memarlıq və İnşaat Universitetinin 3 saylı tədris binasının yenidən qurulması (əlavə tikintisi) işləri üzrə tender elan edir.

Tender iştirakçılarına təklif olunur ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq, yuxarıda göstərilən işlər üzrə tender təkliflərini möhürlənmiş şəkildə ikiqat bağlanmada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir.

Aşağı qiymət, yüksək keyfiyyət, müqavilələrin vaxtında yerinə yetirilməsi, analoji işlərində təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarna malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 150 (yüz əlli) AZN məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürüldükdən sonra Azərbaycan dilində əsas Şərtlər toplusunu Ayna Sultanova küçəsi, 11 ünvanında yerləşən Azərbaycan Memarlıq və İnşaat Universitetindən (Əlaqələndirici şəxs V.R.Ələkbərovdan, Telefon, 538-75-07) ala bilərlər.

**İştirak haqqı bu hesaba köçürülməlidir:**

*Azərbaycan Memarlıq və İnşaat Universiteti*
*Ünvan: AZ 1073, Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11*
*VÖEN:1300430721*
*H/h: AZ36AİİB33070019443307889103*
*Kapital Bank Yasamal filialı*
*KOD - 200037, VÖEN: 9900003611*
*M/h: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T.AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*- tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü qüvvədə qalmalıdır);*

*- tender təklifi dəyərinin 1% həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*

*- Son 1 (bir) il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*- iddiaçının son 1 (bir) il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*

*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət Satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 10 oktyabr 2018-ci il saat 15:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş 2 qat zərfdə 19 oktyabr 2018-ci il saat 17:00-a qədər Azərbaycan Memarlıq və İnşaat Universitetinə (ünvan: Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11, Telefon: 538-75-07) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 22 oktyabr 2018-ci il saat 11:00-da Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11 ünvanında 307 saylı otaqda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

**Tender Komissiyası.**

# Ötən ay Texniki şuralarda 142 müraciətə baxılıb

2018-ci ilin avqust ayı ərzində sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması ilə bağlı “ASAN xidmət” və “ASAN kommunal” mərkəzlərində fəaliyyət göstərən Texniki şuralara sahibkarlar tərəfindən 142 müraciət daxil olub.

Bu barədə Energetika Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilir.

Məlumata əsasən, 140 müraciətin icrası təmin olunub, 2 müraciət isə təqdim edilmiş sənədlərdəki uyğunsuzluqlar səbəbindən icra edilməyib. Bütün müraciətlər hazırda fəaliyyət göstərən 4 Texniki Şura - 1 və 2 saylı “ASAN kommunal” mərkəzlərində, Sumqayıt və Gəncə şəhərlərindəki “ASAN xidmət” mərkəzlərində yaradılmış Texniki şuralar vasitəsilə qəbul edilib və icra olunub.

Ümumilikdə, 2018-ci ilin səkkiz ayı ərzində Energetika Nazirliyi tərəfindən Texniki şuralar vasitəsilə 1431 müraciət qəbul edilib.

Cari ilin avqust ayı üzrə Texniki şuralara daxil olmuş müraciətlər əsasında sahibkarlar tərəfindən 2282,95 kVt güc sifariş olunub və 508996,85 AZN qoşulma haqqı ödənilib.

Xatırladaq ki, Nazirlər Kabinetinin 27 aprel 2018-ci il tarixli 180 nömrəli qərarına əsasən, may ayından etibarən sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması prosesinin müəyyənləşdirilmiş məbləğlər əsasında həyata keçirilməsinə başlanılıb. Belə ki, sahibkarlar üçün tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla, mövcud 0,4 kV-luq şəbəkədən) olan tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə daxil olmasına görə konkret məbləğ müəyyənləşdirilib. Sifarişçinin tikinti obyektinin enerji təchizatı şəbəkəsinə 24 gün və ya istəyinə uyğun olaraq 12 gün müddətində qoşulmasına görə fərqli məbləğlər nəzərdə tutulub.

**Səfər MAHMUDZADƏ,**
**“Respublika”.**

## Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu

## elan edir ki,

Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun server və şəbəkə avadanlığına illik texniki dəstək xidmətinin satın alınması üzrə xidmət təkliflərinin cəlb olunması başa çatmış və satınalmanın qalibi “GT Solyuşnz” MMC ilə 03 sentyabr 2018-ci il tarixli 01 nömrəli satınalma müqaviləsi bağlanmışdır.

**Satınalmalar Komissiyası.**

## BİLDİRİŞ

“AzerGold” QSC-nin 30 iyul 2018-ci il tarixində Samux-Gəncə-Daşkəsən (ÇFES) marşrutu və əks istiqamətdə işçilərin daşınması xidmətinin satın alınması məqsədi ilə keçirdiyi Açıq Tenderdə FM Servis MMC qalib gəlmişdir.

**Tender Komissiyası.**

## Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyinin Bakı Kartoqrafiya Fabriki

## Hp-5000, Hp-T1300, Hp-500 plotterləri, A-3 formatlı lazer printeri üçün rəngli katric və başlıqların alınması üçün

## KOTİROVKA SORĞUSU ELAN EDİR

Sorğuda iştirak etmək istəyənlərin sənədləri 13 sentyabr 2018-ci il saat 18:00-dək Bakı şəhəri, Atatürk prospekti-70 ünvanında qəbul olunur.

Zərflərin açılışı 14 sentyabr 2018-ci il tarixində saat 11:00 Bakı şəhəri, Atatürk prospekti-70 ünvanında keçiriləcəkdir.

**Əlaqələndirici şəxs:** *Rauf Hacıyev*

**Tel.:** *(012) 562 88 21.*

Xaçmaz rayonu Xanoba kənd sakini Zülfiqarov Şakir Rizaba oğlunun adına verilmiş JN-192 nömrəli Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Abdullayev Azər Həsənpaşa oğlunun adına Xaçmaz rayonu Armudpadar kəndində yerləşən torpaq sahəsinə verilmiş Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış (reyestr nömrəsi; 302013001169) itdiyi üçün etibarsız sayılır.

DTXK-nın Şabran rayon şöbəsi tərəfindən Təzəkənd kənd sakini Qurbanov Mübariz Məmməd oğlunun adına verilmiş JN-039 A (kod-30403058) saylı torpağa mülkiyyət hüququna dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Proqnoz və planlaşdırma üzrə aparıcı mütəxəssisi Şəfəq Bayramovaya, atası**

**ZAQİF BAYRAMOVUN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Müşfiq MİRZƏ

● Çapa imzalanmışdır
06.09.2018